Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

28 APREL 2020-ci il

№ 66 (4197)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# UYDURMA «ERMƏNİ GENOSİDİ» İLƏ BAĞLI ERMƏNİSTANDAN RUSİYAYA YENİ İTTİHAM - «ZALIM SÜKUT», 1920-də DƏ GENOSİD ETDİNİZ...

■ səh. 6 ■

Prezidentin tapşırığı əsasında Mərkəzi Bankdan kredit borclularına böyük güzəşt - martın 1-dən sentyabrın 30-dək...

■ səh. 2 ■

190 manat yardım alanların sayının 200 mindən 600 minə çatdırılması barədə Prezident tapşırığı necə icra edilir - artıq 400 min...

■ səh. 3 ■

Yoluxanlarla sağalanların nisbət fərqinə görə Azərbaycan dünyada ən yaxşılar arasında - 1100 nəfəri keçdik...

■ səh. 4 ■

Moskva İrəvanın arxasından çəkilir - erməni mediası Lavrovun son Qarabağ açıqlamasını Ermənistana şantaj kimi dəyərləndirdi

■ səh. 9 ■

Bakı-Tiflis-Qars Türk dünyasının əsas marşrutuna çevrilir...

■ səh. 12 ■

Koronavirus bəlası Ermənistanı bitirir - Paşinyan hökumətinin başı dərddə...

■ səh. 8 ■

Rusiya 1 iyuladək bir istisna ilə xaricə buğda satışını dayandırır, Azərbaycan da Rusiyadan taxıl alıcısıdır...

■ səh. 15 ■



## Pandemiya şəraitində cəbhədə Ermənistanın hərbi üstünlük qazanmaq üçün sui-istifadə cəhdləri artır

■ səh. 5 ■





Pandemiya dövründə virusun Azərbaycanda yayılma risqini artıran şayiələr - təsadüfdürmü...

■ səh. 10 ■

Putin əcnəbilərin ikili vətəndaşlıq şanslarını artırdı - Ermənistan vətəndaşları yenə kənarda qaldı...

■ səh. 6 ■

Azərbaycanda ünvanlı sosial yardım alan 82 min ailə - cəmi bir həftə əvvəl 78 min idi...

■ səh. 7 ■

■ səh. 13 ■

İpoteka üzrə 23 mindən çox borclunun 1,1 milyard manat kreditinə yeni güzəşt...



■ səh. 13 ■

Əmanətlərin tam sığortalanma müddəti də uzadıldı - Prezidentin sərəncamının sosial effektləri...



■ səh. 14 ■

Mərkəzi Bankın kreditlərə güzəşt paketi - bəs istehlak kreditləri...(?)



■ səh. 11 ■

Koronavirus ABŞ-da seçkinin təxirə salınması ehtimalları yaratdı - Tramp hadisələrə fürsət kimi baxacaqmı...



■ səh. 15 ■

Pandemiya ilə mübarizə şəraitində "Çernobıl əlilləri" də unudulmadı



## Azərbaycanda daha 33 nəfər koronavirusa yoluxdu, 23 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında 33 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 23 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1960-cı il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 1678 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1162 nəfər müalicə olunaraq sağalıb, 22 nəfər vəfat edib, 494 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 17 nəfərin vəziyyəti ağır, 26 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 128.807 test aparılıb.

## Həssas qrupa aid tələbələrin təhsil haqlarının dövlət tərəfindən ödənilməsi üçün hazırlıq işləri aparılır

**Hazırda sosial qrupdan həssas tələbə qrupuna aid olan tələbələrin təhsil haqlarının dövlət tərəfindən ödənilməsi üçün hazırlıq işləri aparılır. "Trend"in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov Nazirlər Kabineti yanında Operativ Qərargahın aprelin 27-də keçirdiyi brifinqdə deyib.**

Onun sözlərinə görə, pandemiya ilə bağlı ilkin məlumatlar bəlli olduqdan sonra, Azərbaycan dövləti tərəfindən xüsusi qabaqlayıcı tədbirlərə başlanıb: "Azərbaycan dövləti bu sahədə görülən tədbirlərə görə ilklərə imza atıb. Martın 2-də ölkədəki bütün təhsil müəssisələrində təlim-tədris prosesinin dayandırılması barədə qərar qəbul edilib. Bu qərar qəbul edilərkən dünyanın 12 ölkəsində oxşar məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Bu isə Azərbaycan dövlətinin əhalisinin təhlükəsizliyini necə fikirləşdiyini bir daha göstərir. Artıq bəlli məhdudiyyət tədbirlərindən sonra yumşalmaların olması barədə danışılır. Amma nəzərə almaq lazımdır ki, yenidən məhdudiyyətlərin tətbiqi barədə qərarın verilməməsi üçün hər bir Azərbaycan vətəndaşı öz məsuliyyətini göstərməli, müvafiq qaydalara əməl etməlidir".

Nazir bildirib ki, hazırda 95 min tələbə onlayn platformadan yararlanır. Bunun genişləndirilməsi üçün işlər aparılır.

C.Bayramov qeyd edib ki, bu gün ali məktəblərdə təhsil alan iki tələbədən biri dövlət hesabına təhsil alır: "Lakin pandemiya məşğulluq məsələlərinə də mənfi təsir göstərir. Aprelin 13-də imzalanmış dəstək proqramı çərçivəsində sosial qrupdan həssas tələbə qrupuna aid olan tələbələrin 2019-2020-ci ilin yaz semesteri və 2020-2021-ci ilin payız semestri üzrə təhsil haqqı dövlət tərəfindən ödəniləcək".

# Prezident İlham Əliyevlə Litva Prezidenti Qitanas Nauseda arasında videobağlantı formatında danışıq olub



**Aprelin 27-də Litva tərəfinin təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə Azərbaycan Prezidenti İlham Əliyev videobağlantı formatında danışıblar.**

Litva Prezidenti Qitanas Nauseda Ramazan ayı münasibətilə Azərbaycan Prezidentini təbrik edib.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ikitərəfli münasibətlərə toxunaraq, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, iqtisadi-ticarət əlaqələrinin də bu səviyyəyə qaldırılmasının önəmini qeyd etdilər və pandemiya başa çatdıqdan sonra Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin vacibliyini bildiriblər.

Litva Prezidenti Qitanas Nauseda Şərq Tərəfdaşlığına üzv ölkələrin bu ilin iyun ayında keçirilməsi nəzərdə tutulan Zirvə toplantısına hazırlıq dövründə Şərq Tərəfdaşlığı Proqramı və ümumilikdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin vəziyyəti ilə bağlı Prezident İlham Əliyevdən fikirlərini bölüşməyi xahiş edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak etməklə bərabər, Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin inkişafına önəm verir və bu təşkilatın doqquz ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə dair sənədlər imzalayıb. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələri əhatə edir.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılıb. Litva Prezidenti Qitanas Nauseda pandemiyaya qarşı mübarizədə Azərbaycanın əhəmiyyətli uğurlar qazandığını bildirib.

**Prezident İlham Əliyev koronavirus pandemiyasının başladığı ilk günlərdən Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasda olduğunu və ölkəmizin pandemiya ilə mübarizədə beynəlxalq səyləri və əməkdaşlığı dəstəklədiyini vurğulayıb.**

# Prezidentin tapşırığı əsasında Mərkəzi Bankdan kredit borclularına böyük güzəşt - martın 1-dən sentyabrın 30-dək...

### *Vüqar Bayramov: "...vətəndaşların kredit tarixçəsi pisləşməyəcək"*

**Prezident İlham Əliyevin tapşırığı ilə Mərkəzi Bank tərəfindən istehlak kreditləri olan vətəndaşlara, banklara, sığorta şirkətlərinə güzəştlərin tətbiq olunması ilə bağlı qərar qəbul edilib. Əsas məqsəd pandemiya dövründə maddi sıxıntı yaşayan və kreditlərini ödəməkdə çətinlik çəkən vətəndaşlarımıza dəstək verilməsidir.**



Martın 1-dən sentyabrın 30-na qədər biznes və istehlak kreditini ödəyə bilməyən vətəndaşlara cərimə faizi və dəbbə pulu hesablanmayacaq. Yəni biznes və istehlak təyinatlı kreditlərin (əsas və ya faiz borcu) tam və ya qismən gecikdirilməsi halında 30 sentyabr 2020-ci ilədək borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlər tutulmayacaq. Bu zaman borcalanların kredit tarixçəsi pisləşdirilməyəcək. Bununla belə, sözügedən müddət ərzində kredit təşkilatları tərəfindən əsas borc üzrə faizlərin hesablanması davam etdiriləcək və borcalanlar tərəfindən kredit təşkilatlarına ödənilməsi təmin edilməlidir.

Göründüyü kimi, hökumət pandemiyanın mənfi təsirlərini minimuma endirmək üçün bütün mümkün vasitələrdən kompleks şəkildə istifadə edir. Necə deyərlər, Azərbaycan dünyada ən yaxşı təcrübələri tətbiq edərək, pandemiya ilə mübarizə aparır. Bu baxımdan sentyabrın 30-na qədər biznes və istehlak kreditini ödəyə bilməyən vətəndaşlara cərimə faizi, dəbbə pulunun hesablanmayacağının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramov verilən qərara müsbət prizmadan yanaşdı. Onun fikrincə, burada söhbət kredit tarixçəsi qənaətbəxş olan borclulardan gedir: "Əsas məqamlardan biri kredit borcu olanlarla bağlıdır. Paketə görə, kredit öhdəliklərinin tam və ya qismən gecikdirilməsi halında borcludan əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması banklara tövsiyə edilir. Yəni kredit tarixçəsi mənfi olmayan vətəndaşların ödəmələrində problem varsa, onlar bu imkandan istifadə edəcəklər. Bu o deməkdir ki, martın 1-dən sentyabrın 30-dək kreditinin ödənməsində yubanmalar olan vətəndaşların kredit tarixçəsi pisləşməyəcək. Bu zaman krediti olan vətəndaşların imkanı var ki, onlar sentyabr ayına qədər hissə-hissə ödənişlərini etsinlər. Hesab edirəm ki, bu, kredit borcu olanların xeyrinə olacaq və onların öhdəliklərini yüngülləşdirəcək. Sənədə əsasən, bu il martın 1-i vəziyyətinə keyfiyyəti qənaətbəxş olan və pandemiya ilə əlaqədar kredit borcunu gecikdirən borcalanlar üzrə neqativ məlumatlar 30 sentyabr 2020-ci ilədək kredit bürosuna xüsusi qeydlə təqdim olunacaq. Yəni vətəndaşımızın martın 1-dən sentyabrın 30-dək kredit yubanması olacaqsa, onun kredit tarixçəsinə yazılmayacaq və tarixçə pisləşməyəcək. Paket maliyyə bazarlarında digər sektorları da əhatə edir. Ümumilikdə, güzəşt paketi sistemlidir və pandemiyanın maliyyə bazarı iştirakçılarına təsirlərini minimumlaşdırmağa imkan verəcək".

> *"Hesab edirəm ki, bu, kredit borcu olanların xeyrinə olacaq və onların öhdəliklərini yüngülləşdirəcək"*

***Vidadi ORDAHALLI***

# 190 manat yardım alanların sayının 200 mindən 600 minə çatdırılması barədə Prezident tapşırığı necə icra edilir - artıq 400 min...

***Əli Əlirzayev:** "Fikrimcə, tam olaraq 600 min nəfərə birdəfəlik yardımlar verilib başa çatdıqdan sonra yenidən bu məsələyə qayıdılacaq və..."*

**Bildiyimiz kimi, 190 manat birdəfəlik yardım alan vətəndaşların sırası genişlənir. Artıq 400 min nəfərə işsizliyə görə birdəfəlik yardım verilib. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsizlər və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul şəxslərdən ibarət aztəminatlıların daha 50 min nəfəri üçün birdəfəlik vəsaiti (190 manat) aidiyyəti üzrə köçürüb.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Prezident İlham Əliyevin tapşırığına əsasən, birdəfəlik ödəmə proqramının əhatə dairəsi 3 dəfə artırılıb və proqram üzrə 600 min şəxs üçün birdəfəlik ödəniş edilməsi nəzərdə tutulub. Aprelin 9-dan gündəlik olaraq ödəniş prosesi həyata keçirilir. Artıq birdəfəlik ödəmə vəsaiti köçürülənlərin sayı 400 minə çatıb. Onlara, ümumilikdə, 76 milyon manat vəsait köçürülüb.

Birdəfəlik ödəmə vəsaiti köçürülən şəxsin bu ödəməni almaq üçün müraciət edərkən qeyd etdiyi telefon nömrəsinə bu barədə SMS göndərilir. O, mesajı aldıqdan sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" MMC qeyd edildiyi halda istənilən poçt şöbəsinə, bank göstərildiyi halda həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edir.

Tanınmış iqtisadçı-alim, professor Əli Əlirzayev hesab edir ki, Prezidentin bu tapşırığının da operativ şəkildə həll edilməsi müsbət haldır.

Ə.Əlirzayev Prezidentin son iclasda nazir S.Babayevə bununla bağlı xüsusi tapşırıq verdiyini və ortaya 190 manat birdəfəlik yardım alacaq şəxslərin sayının 200 mindən 600 min nəfərə çatdırılması tələbini qoyduğunu bildirir. O hesab edir ki, qısa müddətdə operativ şəkildə 400 min vətəndaşa işsizliyə görə 190 manat məbləğində yardım edilməsi Prezidentin tapşırığının tez şəkildə icra edilməsi deməkdir: "İşsizliyə görə birdəfəlik sosial yardım verilən insanların sayının az və çox olması real vəziyyətdən asılıdır. Ola bilsin ki, bu gün birdəfəlik yardım almaq kriteriyalarına uyğun gələn şəxslər çoxdur, sadəcə, sənəd məsələsində olan problemlər buna imkan vermir, yaxud o adamın adına torpaq sahəsi, avtomobil, filan var, özü işləmirsə, evində başqa işləyən varsa, onda bu istiqamətdə say artımı elə də baş verməyəcək. Amma gəliri olmadan yaşayırsa, bu insanları işsiz kimi qəbul etmək olar. Bir alim kimi uzun illər bu sahədə tədqiqatlar aparmışam. Bir adamın bir aylıq gəliri yoxdursa belə, o demək ki, işsizdir. Yaxud kiminsə torpağı var, amma o ondan gəlir götürmürsə, deməli, işsizdir. Hesab edirəm ki, 190 manat birdəfəlik yardım ehtiyacı olanlara verilməlidir. Düşünürəm ki, proses belə də həyata keçirilir.

Prezident 600 min nəfərə işsizliyə görə birdəfəlik yardım edilməsi ilə bağlı tələb qoyub, artıq 400 min nəfər yardımla təmin olunub, bu, Prezidentin tapşırıqlarının operativ şəkildə icra edildiyini göstərir. Fikrimcə, tam olaraq 600 min nəfərə birdəfəlik yardımlar verilib başa çatdıqdan sonra yenidən bu məsələyə qayıdılacaq və birdəfəlik yardım alanların sayı daha da artırılacaq. Çünki buna ehtiyac var. Düşünürəm ki, birdəfəlik yardım təyin edilərkən əhalinin ehtiyacı olan təbəqəsi, həqiqətən də işsiz, dolanışığı olmayan insanlar nəzərə alınmalıdır" - deyə Ə.Əlirzayev qeyd etdi.

***İradə SARIYEVA***

# Koronavirusa qarşı tədbirlərə görə gənclərin sözlərini Prezidentə məcburi köçkün Rüfət Salmanzadə dedi...



**Prezident İlham Əliyevin rəhbərliyilə pandemiya dövründə həyata keçirilən təhlükəsizlik tədbirlərinin doğurduğu uğurlu nəticələr vətəndaşlar tərəfindən təqdir edilir. Xüsusən də koronavirus infeksiyasının ölkəmizdə ağır fəsadlara səbəb olmaması üçün dövlətin gördüyü səmərəli işləri Prezidentə yazdıqları məktublarda vətəndaşlar xüsusilə vurğulayırlar.**

Bakıda məskunlaşan məcburi köçkün Salmanzadə Rüfət Əlövsət oğlu Prezidentə ünvanladığı məktubunda "Dünya birliyinin mürəkkəb siyasi və iqtisadi proseslərlə üzləşdiyi bir vaxtda Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadi və mədəni inkişafı, müstəqilliyinin və beynəlxalq nüfuzunun güclənməsi əsasları üzərində möhkəm dayanmış sabitlik adasıdır. Dünyanı bürüyən koronavirus bəlası sanki insan cəmiyyətlərini və fərdləri sınaqdan çıxarır. İnsanlıq ciddi imtahan qarşısındadır. Cənab Prezident, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dünyanı cənginə alan infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və əhalinin sağlamlığının qorunması məqsədilə atdığınız addımlar, həyata keçirdiyiniz siyasət, etdiyiniz müraciətlər, gördüyünüz qabaqlayıcı tədbirlər, əhalinin sağlamlığının qorunması üçün aparılan işlər biz gənclər tərəfindən yüksək qiymətləndirilir" - deyə qeyd edən R.Salmanzadə, həmçinin, yazır ki, Prezidentin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan regionun ən inkişaf etmiş ölkəsinə çevrilib və dünyada öz sözünü deyən dövlət kimi qəbul olunur.

Məcburi köçkün gənc, həmçinin, yazır ki, Prezidentin pandemiya ilə mübarizədə bütün ölkələrdən tez addım atması, məktəblərin, sərhədlərin vaxtında bağlanması barədə qərar verməsi virusun Azərbaycanda yayılmasının qarşısını aldı. O, eyni zamanda, vurğulayır ki, görülən bu işlər təkcə əhali tərəfindən deyil, həm də beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. "Bu çətin günlərdə dövlətimiz, xalqımız üçün göstərdiyiniz fədakarlıq, yorulmaz səyləriniz bir gənc olaraq məni qürurlandırır. Azərbaycan böyüklüyündə bir ailənin qayğısını çəkdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm" - deyə məcburi köçkün gənc məktubunda bildirir.

# "Prometal" MMC şirkətinin direktoru Prezidentə nə yazdı...

**Məlum olduğu kimi, pandemiya ilə mübarizə dövründə iqtisadiyyata, sahibkarlığa kömək məqsədilə həyata keçirilən dövlət dəstəyi proqramları ölkə sahibkarları, şirkət rəhbərləri tərəfindən müsbət qarşılanıb. Dövlət dəstəyi proqramlarından kifayət qədər sahibkar faydalanıb. Bütövlükdə, pandemiya dövründə sahibkarlara dəstək üçün ayrılan vəsaitin həcminə görə Azərbaycan liderdir.**

Dövlət dəstəyi proqramı çərçivəsində ayrılan vəsaitdən faydalanan şirkətlərdən biri olan, Bakıda fəaliyyət göstərən "Prometal" MMC şirkətinin direktoru Vüqar Əsədov Prezidentə müraciətində həm bu məsələdən, həm də pandemiya ilə mübarizədə dövlətin verdiyi mücadilələrdən danışır. "Koronavirus pandemiyasının dünyada yaratdığı makroiqtisadi problemlər və bu problemlərin dünya ölkələrinin iqtisadiyyatında və digər sahələrdə səbəb olduğu mənfi təsirlər hamıya məlumdur. Lakin bu çətin durumda Sizin xalqın önündə gedərək, daim onunla birlikdə olmağınız, ölkəmizdə maddi yardıma ehtiyacı olan hər bir vətəndaşı nəzərə almaqla iri şirkətlərin də bu mənfi təsirlərdən ziyansız ötüşməsi istiqamətində addımlar atmağınız bizdə dövlətimizin və xalqımızın bu çətin vəziyyətdən üzüağ çıxacağına inamı daha da artırıb. Sizin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli Sərəncamınız və həmin sərəncamın icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli Qərarı ölkəmizin bütün iş adamları və sahibkarlarının rəğbətinə səbəb oldu".

V.Əsədov koronavirus pandemiyasından zərərçəkmiş sahibkarlara, o cümlədən, "Prometal" MMC-yə göstərdiyi maddi və mənəvi dəstəyə görə rəhbərlik etdiyi MMC-nin kollektivi adından ölkə başçısına təşəkkürünü bildirir.

# Yoluxanlarla sağalanların nisbət fərqinə görə Azərbaycan dünyada ən yaxşılar arasında - 1100 nəfəri keçdik...

***Leyla Bayramlı:** ”Bu sahədə Azərbaycan bir çox xarici dövlətdən irəlidədir”*



## ”...təsadüfən baş vermədi”

**Dünyanın bir nömrəli probleminə çevrilən koronavirus pandemiyası ilə bütün ölkələr mübarizə aparsalar da, hələ də bu virusla vidalaşmaq mümkün olmayıb. Müasir dünyada koronavirusun yaratdığı faciələri müşahidə edərkən gözlərimiz qarşısında çox acı mənzərə canlanır. Bu gün dünya üzrə koronavirusdan müalicə olunaraq sağalanların sayının yoluxanların sayından az olması bizi məyus edir.**

Bununla belə, dünyada Azərbaycan kimi sağalmaların sayının yoluxmanı üstələdiyi ölkələr də var. Azərbaycanda bu infeksiyaya tutulduğuna görə müalicə olunaraq sağalanların sayı 1100 nəfəri keçib.

Azərbaycanda indiyədək koronavirusa yoluxanların və müalicə olunaraq sağalanların sayı ilə tanış olarkən qarşımıza yeni rəqəmlər çıxır. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1 645 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1 139 nəfər müalicə olunaraq sağalıb, 21 nəfər vəfat edib, 485 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 18 nəfərin vəziyyəti ağır, 25 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti sabitdir.

Son sutka ərzində koronavirusa yoluxanların və müalicə olunaraq sağalanların dünya üzrə statistikasına baxsaq görərik ki, burada əksərən yoluxma və ölüm halları yüksələn xətt üzrə gedir. Məsələn, ABŞ-da son sutkada koronavirusdan 1 126 pasient ölüb. Bu barədə aprelin 27-də Cons Hopkins Universiteti məlumat yayıb. Bildirilib ki, son sutkada koronavirusa 27 631 yoluxma hadisəsi qeydə alınıb. Universitetin məlumatına əsasən, ümumilikdə, yoluxanların sayı 965 933-ə, qurbanların sayı isə 54 877-yə çatıb.

Qeyd edək ki, dünyada koronavirusdan 894 464 nəfər sağalıb, 207 722 nəfər isə virusdan ölüb. İndiyədək 3 017 766 nəfərə COVID-19 diaqnozu qoyulub. Ən çox yoluxma halı ABŞ (965 933), İspaniya (226 629) və İtaliyada (197 675) qeydə alınıb.

Azərbaycanla sərhəd ölkə olan Türkiyədə 110 130 nəfər yoluxub, 2 805 nəfər ölüb. İranda isə qeydə alınmış yoluxma hallarının sayı 90 481-dir. Son məlumata görə, bu ölkədə 5 710 nəfər pandemiyanın qurbanı olub.

Qeyd edək ki, aprelin 26-na olan məlumata görə, Azərbaycanda qeydə alınmış yoluxma faktlarının ümumi sayı 1 645-dir. İndiyədək ölkəmizdə 21 nəfər virusun qurbanı olub.

Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus 210 ölkə və bölgədə qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.

Qeyd etdiyimiz ölkələrdə də, eləcə də Cənubi Qafqazda Azərbaycan virusdan müalicə olunaraq sağalmalar baxımından üstün mövqedədir. Qonşu Gürcüstanda hələ ki, virusun yayılması və yoluxmaların şiddətlənməsi haqqında danışılır. Ermənistanda isə yoluxmanın sürətlə irəliləməsi və bunun nəticəsində ölüm hallarının çoxalması barədə deyilir, yazılır. Azərbaycanda isə, qeyd etdiyimiz kimi, vəziyyət başqadır. Ölkəmiz sağalma nisbətinin yoluxma nisbətinə uyğun olduğu bir vəziyyətə malikdir.

7 saylı Poliklinikanın həkim-terapevti Leyla Bayramlı bizimlə söhbətində bildirdi ki, Azərbaycanın sağalmaların sayının artdığı ölkəyə çevrilməsi, bu baxımdan qabaqcıl ölkələrdən olması təsadüfi deyil. Həkim qeyd etdi ki, bizdə sağalmaların sayı yoluxmaların sayına nisbətən onun üçün çox oldu ki, ölkəmizdə bu prosesə ciddi yanaşıldı: "Bizdə sağalmaların sayı pillələvari getdi. Yəni gün ərzində 40 nəfərdən başlayıb 105, 110 nəfər oldu. Sonra yavaş-yavaş dalğavari formada getməyə başladı. Bizdə sağalma hallarının artıb bu gün 1100 nəfəri adlaması təsadüfən baş vermədi. Çünki bizdə təhlükəsizlik tədbirləri vaxtında görüldü. Əsasən də Azərbaycan dövlətinin sərhədləri tez bağlaması bu məsələdə rol oynadı. Bu gün Azərbaycanda yoluxmalardan çox sağalmaların şahidi oluruq. Bu sahədə Azərbaycan həm Cənubi Qafqazda, həm də bir çox xarici dövlətdən irəlidədir.

Başqa dövlətlər Çində baş verənlərdən nəticə çıxarmayıb, məsələyə qeyri-ciddi yanaşdılar, sərhədləri bağlamadılar. Sərhədlərini bağlamayan ölkələrdə virus daha sürətlə yayıldı və əhali bir-birini yoluxdurdu. Görürsünüz, İtaliya vəziyyətdən çıxa bilmir. Bu ölkədə yaşlıların sayı həddən artıq çox olduğuna görə orada sağalmanın yox, yoluxmanın sayı çoxdur. Azərbaycanda isə sosial izolyasiya, sərhədlərin bağlanması həyata keçirildi və xaricdən ölkəmizə təxliyyə edilən vətəndaşlarımız da birbaşa cəmiyyətə buraxılmadı, ailələri ilə ünsiyyət qurmadılar, onlar karantində saxlanıldılar. Bu da yoluxmanın azalmasına səbəb oldu. Digər tərəfdən, 65 yaşdan yuxarı olan insanların evdə qalması, iş yerlərinin müvəqqəti qapadılması, bir sözlə, sosial izolyasiya bu məsələyə müsbət təsirini göstərdi. Molların, restoran və kafelərin bağlanması da sağlamlaşmaya təsir etdi. Çünki bu zəncirvaridir. Ailədə bir nəfər yoluxubsa, bu həndəsi silsilə ilə arta-arta gedir".

L.Bayramlının fikrincə, yoluxanlarla sağalanların nisbət fərqinə görə Azərbaycanın dünyada ən yaxşılar arasında olmasının səbəblərindən biri də Azərbaycan təbiətinin, relyefinin saflığıdır. Azərbaycanın tarixən sağlam insanlar və uzunömürlülər diyarı olduğunu deyən L.Bayramlı bizim genefondumuzun sağlam olduğunu da önə çəkdi. O, həmçinin, qeyd etdi ki, bu nailiyyətin əldə olunmasında Azərbaycan dövlətinin və həkimlərinin səyləri əvəzsizdir.

**"Viruslu xəstələrin müalicəsində reanimasion tədbirlər operativ və çevik görüldü, bu da sağalmaya müsbət təsir etdi. Ona görə də bizdə elə də problem yaşanmadı. Tənəffüs aparatı ilə bağlı da çətinliyimiz olmadı. Yeni yoluxmanın dərəcəsi bizdə xarici ölkələrdəki kimi şiddətli olmadı. Xaricdə daha çox süni nəfəs aparatına qoşulanlar oldu, indi də var. Bizdə yoluxmanın geniş miqyas almamasında yaş faktoru da var. Çünki başqa ölkələrdən fərqli olaraq, bizdə 65 yaşdan yuxarı olan vətəndaşların sosial izolyasiyaya cəlb edilməsi yaxşı nəticələr verdi" - deyə mütəxəssis bildirdi.**

***İradə SARIYEVA***

# Pandemiya şəraitində cəbhədə Ermənistanın hərbi üstünlük qazanmaq üçün sui-istifadə cəhdləri artır

**Azərbaycan Xarici işlər naziri Elmar Məmmədyarovun erməni həmkarı ilə aprelin 21-də keçirdiyi videokonfransdan sonra ABŞ-dakı bəzi nəşrlər iddia etməyə başlayıblar ki, münaqişə bölgəsində tamamilə fərqli mənzərə yaranıb, yəni "hərbi toqquşmaların sayında azalma yaşanıb".**



***Rəşad Bayramov:** ”Bütün bunlar bir daha sübut edir ki, istər ABŞ, istərsə də münaqişənin həllində iştirak edən digər dövlətlər və qurumlar öz fəaliyyətlərində səmimi deyillər”*

Ancaq bunun heç də belə olmadığını müşahidə edirik. Çünki pandemiya dönəmində Ermənistan tərəfinin dəfələrlə atəşkəsi kobud şəkildə pozduğunun şahidi oluruq. Eyni zamanda, Ermənistan bu müddət ərzində baş tutan danışıqlar prosesində qeyri konstruktivlik kimi inadlı mövqeyini davam etdirir ki, bu da gərginliyin artmasına xidmət edir. ABŞ nəşrlərinin pandemiya dönəmində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi təsnifatlanmaya ekspertlərin yanaşması necədir?

Azərbaycan Milli İstiqlal Partiyası Siyasi Şurasının üzvü, politoloq Rəşad Bayramov "Bakı-Xəbər"ə bildirdi ki, haqqında danışdığınız yazı ilə tanışdır:"Orada iddia olunur ki, ötən ay atəşkəs rejiminin pozulması nəticəsində 3 əsgər və 1 mülki vətəndaş yaralanıb və güya bunların da hamısı erməni olub, lakin ölüm halı qeyd alınmayıb:"Halbuki, keçmişdə tərəflər bu aylarda daha çox itki verirdilər". Yazıda, həmçinin, Beynəlxalq Böhran Qrupunun hesabatına da istinad olunur. Beynəlxalq Böhran Qrupu da ötən illərin yaz fəsli ilə müqayisədə 2020-ci ilin bu dövründə hərbi toqquşmaların sayının azaldığını bildirib. Hətta hesabatda o da etiraf olunur ki, vəziyyətin belə sakit olacağını onlar da proqnazlaşdırıblar. Göründüyü kimi, istər ABŞ nəşrlərində gedən yazılarda, istərsə də Beynəlxalq Böhran Qrupunun hesabatında bir dəfə də olsun Ermənistanın destruktiv mövqeyi, atəşkəs rejimini dəfələrlə pozması, eləcə də mülki əhalini hədəf alması ilə bağlı bircə kəlmə fikir işlədilmir. Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında aprelin 21-də keçirilən videokonfrans barədə statistik məlumat verən nəşrlər, nədənsə, Ermənistan XİN rəhbəri Mnatsakanyanın son bəyanatı haqqında, eləcə də separatçı rejimin pandemiya dövründə Dağlıq Qarabağda "seçki" keçirməsi haqqında danışmamağa üstünlük verirlər. Halbuki, Dağlıq Qarabağda keçirilən "seçki", demək olar ki, bütün beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən kəskin olaraq pislənib və bu cür davranışın danışıqlar prosesinə mənfi təsir etdiyi vurğulanıb. Bütün bunlar bir daha sübut edir ki, istər ABŞ, istərsə də münaqişənin həllində iştirak edən digər dövlətlər və qurumlar öz fəaliyyətlərində səmimi deyillər. Əks halda bu gün Azərbaycan-Ermənistan cəbhəsində "vəziyyətin belə sakit olacağını biz də proqnazlaşdırmırdıq" deyən nəşrlər və ekspertlər reallığı əks etdirən həqiqətləri ortaya qoyar və ermənilərin qeyri-kostruktiv mövqeyinin münaqişənin həllinə imkan vermədiyini vurğulayardılar.

**Atəşkəsin pozulması ilə bağlı statistikaya nəzər yetirsəniz bunun daha çox qarşı tərəfdən edildiyinin şahidi olarsınız. ABŞ nəşrləri məsuliyyəti tərəflər arasında bərabərləşdirməklə qeyri-obyektivliyə yol verirlər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Nəhayət, Tramp da "1,5 milyon ermənінin genosid nağılının" toruna düşürüldü - nəyin müqabilində...

**ABŞ Prezidenti Donald Tramp 1915-ci il aprelin 24-də baş verən hadisələr haqqında "soyqırımı" ifadəsini işlətməyib. Ağ Evin saytında verilən xəbərə görə, ABŞ Prezidenti 1915-ci ildə baş verən hadisələri "böyük fəlakət" adlandırıb.**



***Samir Adıgözəlli:** ”Tramp ”soyqırım” ifadəsi işlətməməklə özünü sığortalayır, lakin mahiyyətcə başqa mövqe ortaya qoyur”*

Buna baxmayaraq, Tramp açıq mətnlə Osmanlı İmperiyası tərəfindən həmin hadisələrdə guya 1,5 milyon adamın öldürüldüyünü, deportasiya olunduğunu bildirib. Tramp, həmçinin, erməni xalqının ünvanına böyük təriflər yağdırıb. Hətta ermənilərin ABŞ-a pənah aparıb, həmin ölkənin inkişafına kömək etdiklərini qeyd edib.

Türkiyə Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı açıqlamasında bildirilir ki, ABŞ Prezidenti Donald Trampın 1915-ci il hadisələri ilə bağlı aprelin 24-dəki açıqlaması ermənilərin həqiqət halına gətirmək istədikləri subyektiv düşüncələrinə, anlayışlarına əsaslanır: "ABŞ Prezidentinin bu açıqlamasının Türkiyə üçün heç bir əhəmiyyəti yoxdur və oradakı iddialar rədd edilir. Açıqlamada erməni üsyançıları tərəfindən 500 mindən çox müsəlmanın qətlə yetirilməsi acısı israrla görməməzliyə vurulur. Bu məsələdə ədalətli olmaq lazımdır".

Bildirilir ki, Türkiyənin 1915-ci il hadisələri ilə bağlı birgə tarixi komissiyanın qurulması ilə barədə təklifi hələ də qüvvədədir: "Birgə komissiyanın qurulması ilə həqiqətlərin üzə çıxacağına inanılır. Bu təklifi gündəmdən çıxarmaq istəyənlər isə 1915-ci il hadisələri ilə bağlı öz məsuliyyətlərini unutdurmaqda maraqlı olan radikal ermənilərdir. ABŞ rəhbərliyi artıq bu həqiqəti dərk etməli və ona uyğun hərəkət etməlidir. Türkiyə tərəfi Osmanlı imperatorluğunun süqutu ərəfəsində həyatını itirən müsəlman, yəhudi və xristianlar olmaqla bütün mülki əhalini saygı ilə anır".

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri (İSBAM) Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, son vaxtlar ABŞ-ın ermənilərə münasibətdə müsbət reveranslar etməsi Türkiyəyə etmək istədiyi təzyiqlərlə bağlıdır: "Qondarma "erməni soyqırımı"ndan daim Türkiyəyə qarşı təzyiq aləti kimi istifadə ediblər. Artıq bu məsələ mahiyyətini tam itirib. Türkiyə bu tip şantajlara əvvəlki qədər əhəmiyyət vermir. Çünki artıq bu saxta iddialar dünyanın bir çox ölkəsinin parlamentində müzakirə olunub. Yadınızdadırsa, ötən ilin sonunda ABŞ Senatı da "erməni soyqırımı" ilə bağlı qərar qəbul etdi. Həmin vaxt belə qətnamənin qəbulunun başlıca səbəblərindən biri Türkiyənin Rusiya ilə sıx əməkdaşlığı idi. Əvvəllər Nümayəndələr Palatası qondarma "soyqırım"ın tanınması ilə bağlı sənədi Senata təqdim etdikdən sonra hər dəfə respublikaçı senatorlar qərarın təsdiqlənməsinə veto qoymuşdular. Amma son hadisələrdən sonra bəlli idi ki, növbəti dəfə qərar qəbul ediləcək. Senatın 100 üzvündən 53 nəfəri respublikaçı, 45 nəfəri demokrat, 2-si isə bitərəfdir. Bu isə o deməkdir ki, qondarma "soyqırım"la bağlı məsələdə respublikaçılar və demokratlar, hətta daha öncə veto hüququndan istifadə edən hakim partiyanın nümayəndələri eyni mövqedən çıxış ediblər. Bu isə ortalıqda vahid siyasi qərarın olduğunu göstərir.

Tramp sonra həmin qərara veto qoydu. Bu çıxış isə ənənəvi "soyqırım" müraciətlərindən fərqlidir. Düzdür, Tramp yenə "soyqırım" ifadəsini işlətmədi, ancaq dolayısı ilə ermənilərin Türkiyə tərəfindən kütləvi qırğına məruz qaldığını bəyan edib. Olduqca zərərli mövqedir. Türkiyənin dərhal reaksiyasından görünür ki, bu mövqe ölkələr arasında ziddiyyət yarada bilər. Ankara ilə əlaqələrin pozulması ABŞ-a yaxşı heç nə verməyəcək. Artıq bəlli olur ki, Tramp "soyqırım" ifadəsi işlətməməklə özünü sığortalayır, lakin mahiyyətcə başqa mövqe ortaya qoyur".

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni mediası yazır ki, 24 apreldə qondarma "soyqırımı" tanıyan və tanımayan ölkələrin liderləri, parlamentləri, siyasi xadimləri, beynəlxalq təşkilatlar, bu ölkəyə dost olanlar, dost olmayanlar Ermənistan və ermənilərə mesaj göndərdilər. Tək Rusiyadan başqa. Qeyd edilir ki, yalnız Rusiyada zalım sükut hökm sürdü.**



# Uydurma "erməni genosidi" ilə bağlı Ermənistandan Rusiyaya yeni ittiham - "zalım sükut", 1920-də də genosid etdiniz...

***Ramil Hüseynov:*** *"Rusiyanın bu dəfə 24 aprellə bağlı heç bir açıqlama verməməsi..."*

Bununla əlaqədar Rusiya tənqid olunur və hətta ötən əsrin 20-ci illərində bu ölkənin ermənilərə qarşı "soyqırım" törətdiyi qeyd edilir.

Bildirilir ki, Rusiya Dövlət Duması 14 aprel 1995-ci ildə qondarma "erməni soyqırımı"nı tanısa da, ondan sonra gərəkən addımlar atılmayıb. Yəni qondarma "genosid" dərsliklərə salınmadı və sair.

Daha sonra iddia edilib ki, 1921-1923-cü illərdə rus-türk birlikləri ermənilərə qarşı "genosid" həyata keçiriblər: "Ermənistan türk və rus qoşunları tərəfindən işğal edildi, türk ordusu rusların dəvətilə və onların iştirakı ilə ermənilərin soyqırımını davam etdirdi. 300 min erməni öldürdü. Sağ qalan ermənilər Rusiyanın dərinliklərinə qaçdılar. 500 min erməni deportasiya edildi".

Erməni mediası bütün bunlardan çıxış edərək o qənaətə gəlir ki, ötən əsrin 20-ci illərində Rusiya onları "genosidə" məruz qoyduğu üçün 24 apreli sükutla izləyir. Susqunluğu həm də bununla ələqələndirməyə çalışırlar.

Məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, Rusiyanın bu dəfə 24 aprellə bağlı heç bir açıqlama verməməsi iki ölkə münasibətlərinin gərgin olması ilə bağlıdır: "Rusiya-Ermənistan münasibətləri gərgindir. Münasibətlərin gərgin olması özünü bir sıra məsələlərdə göstərir. Məsələ ondadır ki, Paşinyan hakimiyyətinin yürütdüyü siyasət Kremli qane etmir. Ona görə də Kreml Ermənistana yönəlik hansısa iqtisadi güzəştlərə getmir. Qazın qiymətinin aşağı salınmaması buna əyani sübutdur. Bununla yanaşı, Putinin dostu sabiq prezident Robert Köçəryanın hələ də həbsdə saxlanması Moskvanı qıcıqlandırır. Paşinyan hakimiyyətə gələndən sonra ona yaxın olan mətbuat davamlı olaraq anti-Rusiya kampaniyası aparır. Rusiyanı bir sıra məsələlərdə kəskin ittiham edirlər. Hətta Rusiya telekanallarının ölkədə maneəsiz yayımının məhdudlaşdırılması belə gündəmə gəlib. Ermənistanın var olmasında Rusiyanın müstəsna xidmətlərinə baxmayaraq, erməni mediası bu ölkəni onlara qarşı "soyqırım" törətməkdə ittiham edir. Bu, erməni xislətindən doğan xəyanətdir. Ermənilər hesab edirlər ki, biz lazım olanı Rusiyadan almışıq. O üzdən, indi Rusiyaya arxa çevirib iqtisadi inkişafı Qərblə yaxınlaşmaqda görürlər. Rusiya da Paşinyan hakimiyyətinin bu siyasi gedişlərinin fərqində olduğu üçün Ermənistana güzəştə getmir. O cümlədən, qondarma "erməni soyqırımı" məsələsində onların maraqlarına uyğun açıqlamalarla çıxış etmirlər".

*"Paşinyan hakimiyyətə gələndən sonra ona yaxın olan mətbuat davamlı olaraq anti-Rusiya kampaniyası aparır"*

***Vidadi ORDAHALLI***

---

**Putin Rusiya vətəndaşlığını almağı asanlaşdırdı. Belə ki, Rusiya Prezidenti Vladimir Putin vətəndaşlara mövcud vətəndaşlığından imtina etmədən Rusiya vətəndaşlığını verməyə imkan verən bir qanun imzalayıb. Bundan əvvəl Rusiya vətəndaşlığını əldə etmək üçün başqa bir ölkənin vətəndaşlığından imtina etmək tələb olunurdu.**

*"Məhz Putinin məlum qərarının Ermənistana şamil olunmaması..."*

# Putin əcnəbilərin ikili vətəndaşlıq şanslarını artırdı - Ermənistan vətəndaşları yenə kənarda qaldı...

***Məhəmməd Əsədullazadə:*** *"Rusiyanın bu qərarı Ermənistana bir daha yerini göstərmək üçün əsl bir fürsət oldu"*



Qanun, eyni zamanda, Rusiya Federasiyasının ərazisində üç il qalmaq və postsovet məkanından insanlar üçün qanuni bir maliyyə mənbəyinin mövcudluğunu təsdiqləmək tələbini də istisna edir. Rusiyada yaşamaq şərtilə Rusiya Federasiyası vətəndaşları ilə evlənən və ortaq övladı olan əcnəbilər, habelə valideynlərindən ən azı biri Rusiyada yaşayan Rusiya Federasiyasının vətəndaşı olan əcnəbilər üçün də bu tələblər istisna edilir. Artıq vətəndaşlıq almaq üçün sadələşdirilmiş prosedur Ukrayna, Moldova, Belarus, Qırğızıstan və Qazaxıstan sakinlərinə etibarlı yaşayış icazəsilə, lakin Rusiya Federasiyasında müəyyən edilmiş yaşayış müddətinə əməl etmədən tətbiq ediləcək. Həm də bir ildən üç ilədək Rusiya vətəndaşlığını almaq üçün Rusiyada yaşayan və 1 iyul 2002-ci ildən sonra Rusiya Federasiyasının təhsil və ya elmi təşkilatlarında əsas akkreditasiya ilə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müraciət edilərkən iş müddətinin artırılması tələbi azalır. Qanun dərc edildikdən 90 gün sonra qüvvəyə minəcək.

Burada diqqətçəkən məqam odur ki, vətəndaşlıq almaq üçün sadələşdirilmiş prosedur Ermənistana şamil edilməyəcək. Hansı ki, siyahıda Avrasiya İqtisadi İttifaqında təmsil olunan 3 ölkənin adı var.

Maraqlıdır, Ermənistan vətəndaşlarının bu siyahıdan kənarda qalmasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Burada Rusiya-Ermənistan əlaqələrinin inkişafından söhbət gedə bilməz. Sadəcə, bu ölkədə Rusiyanın hərbi bazası olduğu üçün, Ermənistanı öz geosiyasi məqsədləri naminə nəzarətində saxlayır. Ermənistan Rusiya üçün heç bir siyasi əhəmiyyəti olmayan ölkədir. Məhz Putinin məlum qərarının Ermənistana şamil olunmaması bu ölkənin Rusiya üçün gələcək perspektivdə xüsusi əhəmiyyət kəsb etmədiyinin bariz nümunəsədir. Hesab edirəm ki, Avrasiya İttifaqı çərçivəsində Ermənistana bu hüquq tanınmadı. Deməli, Rusiyanın başlıca vəzifəsi Ermənistandan yalnız öz hərbi məqsədləri üçün istifadə etməkdir. Ermənistan, sadəcə, Rusiyanın 102-ci bazasının ərazisi və poliqonu rolundadır. Ona görə də Rusiya Ermənistanı bu qədər əhəmiyyətsiz ölkə kimi görür. Əslində, bundan nəticə çıxaran olan ölkə Ermənistan olmalıdır. Nikol Paşinyan bilməlidir ki, Rusiya bu ölkəni qəbul etmir. O üzdən, Qarabağ məsələsində Rusiyadan uzaqlaşıb, praqmatik qərarlar qəbul edib, öz işğalçı mahiyyətini kənara qoyub Azərbaycanla razılığa gəlməlidir. İşğal faktoru Ermənistanı bir ölkə kimi Rusiya üçün tam bir poliqon vəziyyətinə gətirib. Hesab edirəm ki, Rusiyanın bu qərarı Ermənistana bir daha yerini göstərmək üçün əsl bir fürsət oldu".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda ünvanlı sosial yardım alan 82 min ailə - cəmi bir həftə əvvəl 78 min idi...

## Ruslan Atakişiyev: "Prezidentin bu istiqamətdə verdiyi tapşırıqlar operativ şəkildə həll olunur"

**Azərbaycanda həyata keçirilən sosial paket layihəsi günü-gündən daha çox vətəndaşı əhatə etməkdədir. Prezident İlham Əliyevin göstərişinə əsasən, ünvanlı sosial yardım alan ailələrin sayı artırılıb.**



*"...onlar gələcəkdə müxtəlif proqramlara cəlb olunmaqla həm özləri üçün iş əldə edə, həm də..."*

Məlumatlara görə, ünvanlı sosial yardım alan ailələrin sayı 82 minə çatıb. Belə ki, aztəminatlı ailələrə dövlət dəstəyinin artırılması sahəsində aparılan işlərdən biri kimi ünvanlı dövlət sosial yardım proqramının əhatə dairəsi də genişləndirilir.

Aprelin 1-dən ünvanlı sosial yardımı alanların sayı 12 min ailə artaraq 82 minə çatıb. Ünvanlı yardım alan ailə üzvlərinin sayı isə bu ay 50 min nəfər artıb və hazırda 340 min nəfərdir. Sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği də artmaqda davam edərək, 222 manata çatıb.

Onu da bildirək ki, xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə də dəstək göstərilib. Onlara bu yardımın verilməsi müddəti karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadılıb.

Qeyd edək ki, ötən həftə ünvanlı sosial yardım alan ailələrin sayı 78 min 300-ə nəfər olub.

Ekspertlər qeyd edirlər ki, aztəminatı ailələrin ünvanlı sosial yardım proqramından faydalanmaq imkanlarının və proqrama əlçatanlığının artırılması işləri nəticəsində bu yardımı alan ailələrin sayı artmaqda davam edir.

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, tanınmış iqtisadçı Ruslan Atakişiyev "Bakı-Xəbər"ə bildirdi ki, dövlətin əsas hədəfi ehtiyacı olan şəxslərin, ailələrin ünvanlı sosial yardımla təmin olunması və onların sosial rifah halının yüksəldilməsidir. "Aprelin 15-də İqtisadiyyat naziri Mikayıl Cabbarov və Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevlə keçirdiyi videokonfransda Prezident qeyd etmişdi ki, ümumiyyətlə, ünvanlı sosial yardımın gələcəkdə əhatə dairəsini genişləndirmək lazımdır. Məsələ bundan ibarətdir ki, ünvanlı sosial yardım praktikası Azərbaycanda uzun müddətdir tətbiq olunur. Amma bilirsiniz ki, əvvəlki dövrlərdə ünvanlı sosial yardımın meyarlarına uyğun insanların seçilməsi prosesində çoxlu qanunsuzluq, sui-istifadə halları baş verirdi. Xüsusən son dövrlər həyata keçirilən islahatlar nəticəsində bu işi həyata keçirən regional idarələrdə vəzifəli şəxslərin işdən kənarlaşdırılması baş verdi və şəffaflaşdırma işləri aparıldı. O cümlədən də artıq ünvanlı sosial yardım almaq üçün müraciətlərin onlayn şəkildə həyata keçirilməsi nazirliyin, yaxud Sosial Müdafiə Fondunun əməkdaşlarının vətəndaşlarla təmasını minimuma endirib. Ona görə də bu gün imkan yaranıb ki, mövcud şəffaflıq prosesindən yararlanaraq həqiqi o meyarlara cavab verən şəxslərin aşkarlanması və onlara ünvanlı sosial yardımın təyin olunması daha uyğundur. Bu baxımdan, həm son dövrlər baş verən koronavirus pandemiyası zamanında ünvanlı sosial yardım alan ehtiyacı olan insanların sayının artması təqdirəlayiqdir".

R.Atakişiyev, həmçinin, qeyd etdi ki, aprelin 15-də keçirdiyi onlayn iclasda Prezident özü ünvanlı sosial yardımın dairəsinin genişləndirilməsi ilə bağlı nazirə konkret göstərişlər verib. "Gördüyümüz kimi, Prezidentin bu istiqamətdə verdiyi tapşırıqlar operativ şəkildə həll olunur və ünvanlı sosial yardım alanların sayı qısa müddət ərzində bu qədər artıb. Hesab edirəm ki, yenə də artım olacaq və daha çox vətəndaş ünvanlı sosial yardımla təmin ediləcək. Prezident nazirə ünvanlı sosial yardım alanların əhatəsini genişləndirməyi tapşırmışdı. Genişləndirmə prosesini gerçəkləşdirən məsələlərdən biri də ondan ibarətdir ki, ünvanlı sosial yardım almaqla bağlı müraciətlər var. Ünvanlı sosial yardımın təyin olunması ilə bağlı müraciətlərə cavab verilməsi, insanların bura cəlb edilməsi ona görə əhəmiyyətlidir ki, bura cəlb olunma nəticəsində yeni proqramlar yaranır.

**Bu proqramlar nədən ibarətdir? Ünvanlı sosial yardım alan insanlar, vətəndaşlar qarşıdakı dövrlərdə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin özünüməşğulluq proqramından da istifadə etmək imkanı əldə edirlər. Qeyd edək ki, onların özünüməşğulluq proqramı ilə yanaşı, peşə hazırlığı proqramlarına da cəlb edilmək imkanları yaranır. Bu gün vətəndaşların ünvanlı sosial yardım almalarına baxmayaraq, onlar gələcəkdə müxtəlif proqramlara cəlb olunmaqla həm özləri üçün iş əldə edə, həm də özünüməşğulluq proqramı çərçivəsində öz bizneslərini təşkil etmək imkanı qazana bilərlər" - deyə R.Atakişiyev qeyd etdi.**

*İradə SARIYEVA*

# Koronavirus bəlası Ermənistanı bitirir - Paşinyan hökumətinin başı dərddə...

**Koronavirus hələ də dünya gündəminin bir nömrəli mövzusu olaraq qalmaqda, qolbal miqyasda ciddi təhdid mənbəyi kimi çıxış etməkdədir. Artıq danılmaz həqiqətdir ki, pandemiya dünyanın geosiyasi, geoiqtisadi mənzərəsində də mühüm yeniliklərə səbəb olacaq.**

Bura Cənubi Qafqaz regionu da daxil edilir. Ekspertlər hesab edir ki, postpandemiya dönəmində regionda tamam yeni bir vəziyyətin formalaşmasını gözləmək olar. Ilkin analizlər isə bu qənaətə gəlməyə əsas verir ki, regionda koronavirusun ən çox sarsıtdığı ölkə Ermənistan olacaq. Çünki hazırda virusun ən çox zərbə vurduğu ölkə qismində də məhz Ermənistan çıxış edir. Bura səhiyyədə yaşanan problemlərlə yanaşı, iqtisadi-sosial sahədə qeydə alınan ağır vəziyyət də daxildir.

Azərbaycana gəldikdə, ölkəmizlə bağlı vəziyyət tamam fərqlidir. Bunu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hazırladığı "COVID-19: Şərq Tərəfdaşlığı ölkələrinin böhrana cavabı" adlı hesabatdan da görmək olar. Sənəddə qeyd olunur ki, koronavirus pandemiyası başlayandan sonra Şərq Tərəfdaşlığı ölkələri virusu əngəlləmək üçün təcili tədbirlər gördülər:"İrana yaxın olduqlarını nəzərə alan Azərbaycan, Ermənistan, Gürcüstan səfərlər, kütləvi toplantılar üçün məhdudiyyətlər tətbiq edib, məktəbləri bağlayıblar. Lakin COVID-19-un regionda yayılması Şərq Tərəfdaşlığı ölkələrinin əksəriyyətini daha sərt karantin tədbirlərinə əl atmağa, bəzi hallarda hətta fövqəladə rejim tətbiq etməyə vadar etdi".

Koronavirus pandemiyasının dünya iqtisadiyyatına böyük zərbələr vurduğunu qeyd edən hesabat müəllifləri göstərir ki, region ölkələrində də dövlət istiqrazlarının gəlirlilik dərəcəsi, valyuta məzənnələrinin dəyişkənliyi sərmayədarların yerli iqtisadiyyata etimadının azaldığını göstərir:"Azərbaycan istisna olmaqla, Şərq Tərəfdaşlığı ölkələrində milli valyutaların xeyli ucuzlaşması, dövlət istiqrazlarının artan gəlirliliyi ilə nəticələnib. Bu da sözügedən ölkələrdə dövlət maliyyə sisteminin sabitliyinə dair narahatlığın gücləndiyinə dəlalət edir". Azərbaycanla bağlı sənəddə pandemiyanın iqtisadi fəsadlarını aradan qaldırmaq istiqamətində hökumətin atdığı addımlar qeyd olunur:"Azərbaycanda geniş iqtisadi dəstək proqramı qəbul edilib. Bu çərçivədə 2,5 milyard manatlıq on dəstək zərfindən birincisi ən çox zərərə uğraması gözlənilən dörd iqtisadi sahəyə, o cümlədən turizmə yönəldilir. Hökumət işçilərin məvacibini bütövlüklə və yaxud qismən ödəmək niyyətindədir. İkinci dəstək zərfi isə mikro sahibkarlığa yardım üçün nəzərdə tutulub". Regionda ən pis vəziyyət isə məhz Ermənistandadır.

Məsələ burasındadır ki, Ermənistanda virus səbəbindən iqtisadi çöküş sürətlənib, eləcə də koronaya tutulanların sayı durmadan artır. Cənubi Qafqazda bu sahədə ən yüksək göstəricilər məhz Ermənistandadır. Ölkədə koronavirusa yoluxanların sayı 2 minə çatır, Onlardan 30 nəfər ölüb. Ermənistanın səhiyyə naziri Arsen Torosyan bu durumda ölkədə koronavirusa yoluxma hallarının artmasını müxtəlif səbəblərlə əlaqələndirməyə çalışır. Nazir "Azatutyun" radiosunun efirində koronavirusun yayılma tempinin mütləq sayda artdığını etiraf edib:"Təəssüf ki, bizdə virusun yayılmasının müxtəlif mərkəzləri var. Yəni mart ayının ortalarında bu mərkəzlər 1-2 idisə, sonra 3 oldu. Bundan sonra virus həmin mərkəzlərin xaricində yayılmağa başladı. İndi ölkəmizdə bir-biri ilə əlaqəsiz 10, bəzən 20 mərkəz var və biz onları birinci ocaqla bağlayan bağı tapa bilmirik. Bu təbii, çox simptomsuz hadisə, mümkündür ki, virus COVID-19-a yoluxduğunu bilməyən insandan insana ötürülüb". Onun sözlərinə görə, koronavirusun yayılmasının başqa "bədbəxt istiqaməti" tibb mərkəzləridir: "Biz tibb mərkəzlərində koronavirusun yayılmasının qarşısını almaq və başqa xəstələri qorumaq üçün bütün qüvvələrimizi cəmlədik". Torosyan, həmçinin, xəstə sayının çoxalmasını küçələrdə hərəkətin artması, vilayətlərarası və şəhərlərarası yolların, bəzi məişət subyektlərinin açılması ilə əlaqələndirib. Ermənistanın "Politekonomika" araşdırma mərkəzinin rəhbəri Andranik Tevanyan da vəziyyətin ağır olduğunu bildirir:"Koronavirus böhranından əvvəl Ermənistan baş naziri Gürcüstanla, həmçinin Azərbaycanla iqtisadi göstəricilərdə rəqabət aparmağı və özünü regional rəhbər kimi təqdim etməyi sevirdi, indi isə əsl koronavirus statistikasını qeyd etmək istəmir, çünki sərfəli deyil. Hazırkı vəziyyətə əsasən, Ermənistanda rəsmi olaraq daha çox insanın virusa yoluxduğu aydın görünür. Gürcüstanda və Azərbaycanda bizə nisbətən xeyli azdır. Ölüm sayları da bizim xeyrimizə deyil". Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan da ölkəsinin durumunun ağır olduğunu bildirir:"Ermənistanda koronavirus sürətlə yayılır. Nikol Paşinyanın prosesə heç bir şəkildə təsir göstərə bilmədiyi artıq aydındır. Hər şey



Tanrının ümidinə qalıb. Nə qədər yayılır, qoy yayılsın. Bu epidemiya bir gün öz zirvəsinə çatacaq və geri çəkiləcək. Bəlkə yayın istisi kömək edəcək, bəlkə də ağcaqanadlar vəziyyəti daha da ağırlaşdıracaq. Təqdim etdiyim zəmanətlər əsasən nəzərə alınmır. Bir problem var: bu zəmanətləri həyata keçirmək üçün müəyyən bacarıq tələb olunur. Mövcud hökumətin belə bacarığı yoxdur. Nəticə isə göz qabağındadır: koronavirus ölkədə tüğyan edir. Hətta paytaxt İrəvan utancverici vəziyyətdədir. Küçələr yuyulmur, səkilər, eyvanlar və liftlər dezinfeksiya olunmur. Şəhər meri Hayk Marutyan komandası ilə görsənmir. Nə baş nazir, nə də prezident heç olmasa bir dəfə xəstəxanaya baş çəkməyə, xəstələr və həkimlərlə söhbət etməyə, tibb işçilərinin maaşlarını qaldırmağa cəsarət edir. Paşinyanın əsas işi oturub "kapital proqramları"nı müzakirə etməkdir. Bütün bunların nə vaxtsa sona çatacağı və hakimiyyət dəyişikliyinin olacağı qaçılmazdır. Çünki bu hakimiyyət dönəmində regionda ən pis vəziyyət məhz Ermənistanda olacaq".

Həqiqətən də proseslərin gedişi virusun regionda Ermənistanı tam çökdürəcəyini aydın nümayiş etdirir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Moskva İrəvanın arxasından çəkilir - erməni mediası Lavrovun son Qarabağ açıqlamasını Ermənistana şantaj kimi dəyərləndirdi

**Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranan yeni vəziyyət işğalçı Ermənistanın mövqeyinin artıq əhəmiyyətli dərəcədə sarsıldığını, onun tam təklənmiş vəziyyətə düşdüyünü göstərir. Elə Ermənistanın özündə də hesab edirlər ki, indiyə qədər əsas hamisi olan Rusiya İrəvanın arxasından çəkilərək onu güclü Azərbaycanla təkbətək qoyub.**

Hər şey Rusiya xarici işlər naziri Sergey Lavrovun münaqişənin mərhələli həllinə dair verdiyi son açıqlamadan başlanıb. Xatırladaq ki, Lavrov keçən il Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündə təklif olunan Qarabağ tənzimlənməsi ilə bağlı təkliflərinin fəal şəkildə müzakirə olunduğunu, onların imzalanmasının BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi baxımından əhəmiyyətli bir addım olacağını bildirib. O qeyd edib ki, bu sənədlər birinci mərhələdə daha aktual məsələləri, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsi və nəqliyyat, iqtisadi və digər kommunikasiyaların açılması ilə mərhələli yanaşma əsasında bir həll yolunu nəzərdə tutur. Beləliklə, artıq bir ildir ki, danışıqlar masasında konkret təkliflər müzakirə olunur. İndiyə qədər Ermənistan hakimiyyəti müxtəlif məqamlarda konkret təkliflərin olmadığını bildirsə də, Rusiyanın ATƏT-in Minsk Qrupundakı nümayəndəsi, uzun müddət Dağlıq Qarabağ sülh prosesində iştirak edən peşəkar diplomat Lavrov təkliflərin olduğunu, üstəlik bəzi təfərrüatları açıq şəkildə ictimaiyyətə açıqlayıb.

Burada xatırlatmaq yerinə düşərdi ki, 2019-cu ilin 15 aprel tarixində Moskvada Ermənistan, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin görüşü baş tutub. O vaxt Moskva danışıqları qapalı keçirildi. Sadəcə, verilən rəsmi açıqlamada bildirildi ki,

Rusiya tərəfinin təşəbbüsü ilə baş tutan xarici işlər nazirlərinin görüşü zamanı sərhəddəki və təmas xəttindəki cari vəziyyət müzakirə edilib. Humanitar sahədə əməkdaşlığın qurulması perspektivləri də müzakirə olunub. Sazişin fundamental problemləri barədə də fikir mübadiləsi aparılmışdı. Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Dağlıq Qarabağ münaqişəsinin siyasi və diplomatik yollarla həlli istiqamətində səylərini davam etdirməyə qərarlı olduqlarını bir daha təsdiqləmişdilər. İndi isə Lavrovun açıqlamalarından bəlli olur ki, o vaxt Moskvada tərəflər mərhələli həll planını da müzakirə ediblər.

Bu durumda erməni siyasi analitik Karen Bekaryan bildirir ki, İrəvanın dediklərindən asılı olmayaraq, faktiki Qarabağ münaqişəsinin mərhələli həlli aktiv müzakirə predmetidir:"Danışıqlar var və bu danışıqlar bir ildən artıqdır davam edir. Yəni barəsində Ermənistan səlahiyyətliləri tərəfindən danışılan, "Danışmırıq, məsləhətləşirik, ümumiyyətlə biz sənəd əziyyətinə çatmamışıq, sənəd yoxdur" və sair kimi bütün iddialar bu bəyanata uyğun gəlmir". Analitikin sözlərinə görə, həm "mərhələli variant", həm "paket variantı", həm də "ümumi dövlət" paketi tamamilə açıqlanıb:"Lavrovun bəyanatını təhlil edəndə 1995-1997-ci illəri geri qaytardığımızı görürük". Rusiyalı siyasi və təhlükəsizlik məsələləri üzrə analitik Qriqori Trofimçuk isə bildirir ki, indiki halda İrəvan danışıqları pozmağa çalışsa, onu hərblə başa salmaq lazım gələcək:"Sergey Lavrovun həll formatı ilə bağlı qeyd etdiyi tezisdə hər hansı sensasiya yoxdur və olmayıb, çünki mərhələli variant 25 il ərzində müzakirə olunub, məqsədə doğru hərəkət etmək üçün mərhələli yol haqqında danışıq hər zaman olub". Trofimçuk bildirib ki, rus tərəfi, hər zaman olduğu kimi, bütün lazımi sənədlərin çoxdandır masada olduğu barədə qeyd edib:"Rusiya tərəfi dəfələrlə danışıqlar masasında bu sənədlərin olduğunu qeyd edib. Ancaq indiki dövrün problemi ondadır ki, hakimiyyətə gələn Nikol Paşinyan danışıqlar prosesinin bütün tarixinin, o cümlədən mərhələli prosesin üzərindən xətt çəkib, guya öz baxışlarını təklif etdi. Paşinyan bunu etməklə, sadəcə Bakını müharibəyə sürükləyir. Artıq hamıya məlum oldu ki, baş nazir Paşinyanın rəhbərliyi altında danışıqlar prosesini uğurla inkişaf etdirmək mümkün olmayacaq. Bu da, təəssüf ki, müharibənin başlama ehtimalını getdikcə artırır ". Trofimçuk qeyd edib ki, Paşinyan danışıqlarda əsas qeyri-sabitlik yaradan amildir: "O, hadisələrin normal axarına nail olmağa imkan verməyən əsas dağıdıcı amildir. Ermənilərin gözü qarşısında Paşinyanın günahı budur ki, məhz onun ucbatından Rusiya-Azərbaycan münasibətləri həqiqətən də strateji xarakter aldı və Ermənistan-Rusiya münasibətləri getdikcə daha da pisləşdi. Gec-tez Paşinyan hər şeyə, o cümlədən Qarabağdakı ab-havaya görə cavab verməli olacaq. Əminəm ki, bunu onun özü də çox yaxşı başa düşür. 2016-cı ilin aprel döyüşləri zamanı Sarkisyan hakimiyyətdə idi və Moskva-İrəvan münasibətləri də indikindən qat-qat yaxşı idi. Buna görə də döyüşlər bu qədər tez dayandı. Ancaq Rusiyanın hazırkı durumda, artıq Paşinyanın rəhbərliyi altında olan Ermənistana qarşı oxşar vəziyyətdə necə davranacağını təxmin etmək olar". Ekspert açıq şəkildə qeyd edir ki, bu dəfə savaş başlasa, Moskva prosesə müdaxilə etməyəcək.

Rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Daria Qrevtsova hesab edir ki, belə vəziyyətdə qısa müddətdə zəbt edilmiş əraziləri geri qaytarmaq Azərbaycan üçün çətin olmayacaq. O, yeni savaşın günahkarının da məhz Ermənistan olduğunu vurğulayır:"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 2019-cu ilin aprelində müəyyənləşdirilmiş və bütün tərəflərin imzaladığı prinsiplərin həyata keçirilməsinin mümkün olmaması barədə Ermənistan xarici işlər nazirinin bəyanatı yalnız və yalnız Ermənistan tərəfinin qeyri-adekvatlığına dəlalət edir. Artıq imzalanıbsa, yerinə yetirməmək olmaz. Qabaqcadan əldə edilən razılaşmanı pozmaq diplomatiyadan uzaq davranışdır. Görünür, erməni siyasətçilərin populist şüarçılığı xalqın iqtisadi rifahından daha əhəmiyyətli olub. Sözügedən prinsiplərə görə, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların boşaldılması müqabilində Ermənistan iqtisadi blokadadan qurtulacaq. Bu da iqtisadiyyatının bərbad kökdə olduğunu gözəl bildiyimiz bu ölkə üçün çox mühümdür. Amma hökumət başqa yol tutub. Burada bəzi məqamlar var. Birincisi, Dağlıq Qarabağ münaqişəsinin həlli Rusiya üçün əhəmiyyətlidir. Rusiyanın Xarici İşlər Nazirliyi, həmçinin nazir Sergey Lavrov bu münaqişənin həllində maraqlı olsalar da, Ermənistan tərəfinin mövqeyi prosesi yubadır. İkincisi, bu kimi açıqlamalar heç də həmişə ciddi qəbul olunmamalıdır. Ermənistan xarici işlər nazirinin məlum açıqlamasından az sonra tamam başqa məzmunlu açıqlamaların veriləcəyi istisna deyil. Məsələ burasındadır ki, baş nazir Nikol Paşinyan Dağlıq Qarabağda təşkil edilən qondarma "seçkilər"dən sonra orada öz adamlarını iş başına gətirdiyinə görə Azərbaycanla razılığa gəlmək istəyini elə Qarabağ ermənilərinin mövqeyi kimi qələmə vermək imkanı qazanıb. Yəni Nikol Paşinyan özü belə təşəbbüs irəli sürərsə, radikallar tərəfindən hakimiyyətdən devrilə, hətta öldürülə biləcəyindən qorxduğu üçün bunun məsuliyyətini ac-yalavac Qarabağ ermənilərinin üzərinə yıxmağa çalışır. Beləliklə, ola bilsin, Paşinyan Qarabağ erməniləri tərəfindən iqtisadi blokadanın qaldırılması, iqtisadi dirçəliş istədikləri barədə səs çıxmasını gözləyəcək, sonra isə Dağlıq Qarabağ ətrafındakı rayonlara dair güzəştlərdən söhbət açmaq məqamı yetişəcək". Ermənistanın belə bir səmərəsiz mövqeyi ucbatından ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən təzyiqlərə məruz qalıb-qalmayacağı barədə suala cavab verən politoloq bildirib: "ATƏT-in Minsk Qrupu üzvləri tərəfindən İrəvana təzyiq göstəriləcək. Çünki Ermənistanın bu münaqişənin mərhələli həllindən boyun qaçırması üzündən müharibə ehtimalının gerçəkləşə biləcəyini hamı dərk edir. Hər hansı münaqişənin dinc yolla həllində irəliləyiş yoxdursa, yeni müharibə ehtimalı ortaya çıxır. Ermənistanın bu müqaviməti Moskvanı əsəbiləşdirdiyinə görə daha güclü təzyiq gözləmək olar. Üstəlik, Rusiya hökuməti Nikol Paşinyanı ABŞ-ın adamı hesab edərək ona etimad etmir. Bütün bunlar Azərbaycanı Minsk Qrupu həmsədrlərinin də, bütövlükdə dünya birliyinin də nəzərində daha güclü mövqeyə gətirir".

Erməni mediası yazır ki, əslində Rusiya İrəvana qarşı təzyiq alətlərini artıq işə salıb. Ermənistanın "Qraparak" nəşri qeyd edir ki, Qarabağ münaqişəsinin mərhələli həlli versiyasını elan etməkdən başqa, Sergey Lavrov həm də qazın qiyməti və Rusiya şirkətlərinə qarşı cinayət işlərinin dayandırılması barədə danışıb.

Qəzet yazır ki, bir çox erməni ekspertlərin fikrincə, Lavrov şantaj dilində danışmağa başlayıb. Belə ki, Lavrov açıqlamasında aşağıdakıları da qeyd edib: "Əgər tərəfdaşlıqdan söhbət gedirsə, deməli, bu bütün sahələrdə özünü göstərməlidir. İqtisadiyyatdan bəhs etsək, son illərdə ortaq müəssisələrə, o cümlədən "Cənubi Qafqaz Dəmir Yoluna" qarşı qaldırılan cinayət işlərinin strateji müttəfiqlərə uyğun olmayan şeyləri tətbiq etmək cəhdləri olmadan həll olunacağına böyük ümidlərimiz var. Mən bu barədə çox səmimi danışıram, çünki Rusiya şirkətlərinin qarışdığı bir neçə çətin vəziyyət yaranıb". "Qraparak" bu fonda yazır: "Rusiya xarici işlər nazirinin şantaj dilində danışmasının yetərli olmadığı, hələ üstəlik də Ermənistan-Rusiya ortaq müəssisəsi olmayan, ancaq Rusiyanın törəmə şirkətinə idarəetmə səlahiyyəti olaraq təhvil verilən Ermənistan Dəmir Yolunu "müştərək" adlandırdığını qeyd edib. Bundan əlavə, cənab Lavrov bütün bu məsələlərin hər iki tərəfin razı qalacağı şəkildə həll olunacağına ümid edir. Bu isə o deməkdir ki, Rusiya şantaş və təzyiqə başlayıb. İndiki halda bu, Azərbaycan üçün məqbul situasiyadır".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Pandemiya dövründə virusun Azərbaycanda yayılma risqini artıran şayiələr - təsadüfdürmü...

## *Elşən Həsənov: "Həmin qurumlar və ənənəvi peşəkar media dərhal bu qəbildən olan məlumatlara reaksiya verməlidir ki, yalan daha geniş areala yayılmasın"*

**Pandemiya dönəmində çoxlu sayda şayiələrin yayıldığının şahidi olduq. Son iki gün ərzində vətəndaşların kütləvi şəkildə ödəmə terminallarının önünə toplaşdığı müşahidə edildi.**

Məlum oldu ki, vətəndaşlar güya "Azəriqaz"ın hər ailəyə 10 manat pulsuz qaz limiti verdiyi ilə bağlı "Whatsapp" proqramı vasitəsilə yayılan səs yazısına inanıb toplaşıblar ki, kartlarına həmin məbləği yükləsinlər. Smart-kartlara ödəniş terminallarında əlavə 10 manat vəsaitin hədiyyə edilməsi ilə bağlı insanların kütləvi aldadılması halları ilə bağlı "Azəriqaz" İstehsalat Birliyindən bildirilib ki, bu hal sosial şəbəkələrdə bəzi insanların yanlış məlumatlar paylaşıb, səs yazıları, elanlar verməsindən sonra yaranıb:"Azəriqaz" İstehsalat Birliyi olaraq bəyan edirik ki, belə məlumatlara aldanmayın və aşağıdakı şərhimizə diqqətlə yanaşın. Ümumiyyətlə, smart-kartın bərpası deyilən bir xidmət mövcuddur. Yəni sosial şəbəkələrdə bu barədə yayılan videomateriallarda da həmin proses tam düzgün izah olunur. Smart-kart necə bərpa olunursa, ondan danışılır. Abonent, məsələn, 10 manat vəsait yükləyib. Bu zaman kartı terminaldan tez götürərkən və ya həmin anda internet ötürücülərdə problem yaranarsa, vəsait karta yüklənməyə bilər. Amma ödəniş ödəmə qəbzində əksini tapır. Bir anda abonent vəsaitin yükləndiyini düşünür və gəlib kartdakı məbləği sayğaca yükləyəndə, sıfır göstəricisi göstərir. Bu halda məsləhət görülür ki, smart-kart təkrar aparılmalıdır ödəniş terminalına və menyuda "Smart-kartın bərpası" seçilməklə əvvəlki məbləğ yenidən yüklənməlidir. Yəni proses bu qədər sadədir. Lakin kimlərsə bunu tamam başqa məqsədlərə yönəldib. Dünən gecə saatlarından etibarən belə bir ajiotaj yaradılıb ki, ödəniş terminallarında "Smart-kartın bərpası" düyməsini klikləməklə kartlara əlavə 10 manat da yükləmək mümkündür. Bəziləri bunu "Azəriqaz" İB-nin vətəndaşlara "hədiyyəsi" kimi də qələmə verib. Birliyin sosial şəbəkələrdə apardığı monitorinq zamanı da müşahidə edilib ki, bəzi marketlərdəki ödəmə terminalları qarşısında gecə saatlarında hətta növbələr də yaranıb. Bildirmək istərdik ki, bu yanlış əməliyyat abonentlərin smart-kartlarında ciddi qüsur yarada bilər. Çünki hər ödəmə bir vahid kod üzərində icra olunur və təkrarsızdır. Yəni kartı ödəmə terminalına zərurət olmadığı halda daxil edib "Smart-kartın bərpası" düyməsini klikləyib əməliyyatı həyata keçirmək yalnız həmin kartın sıradan çıxmasına gətirib çıxara bilər. Belə olan halda kartda yaranan qüsurlara görə yeni məbləğ yüklənilində problemlər yaranacaq və bundan başqa, abonentlər kartlarının əvvəlki qaydada işləkliyini təmin etmək üçün "ASAN xidmət", "ASAN Kommunal" və Birliyin xidmət sahələrinə üz tutmalı olacaqlar. Bu zaman onların həm vaxt itkisi ilə üzləşməsi, həm də müəyyən müddətə qazsız qalması qaçılmazdır". "Azəriqaz" İB diqqətə çatdırır ki, belə çağırışlardan çəkinəsiniz:"Hər hansı yanlış məlumat sizin qazdan normal şəkildə istifadənizi əngəlləyə, eyni zamanda istifadənizdə olan qurğuların sıradan çıxmasına gətirib çıxara bilər. Düzgün, dürüst məlumatları yalnız "Azəriqaz" İstehsalat Birliyinin 104/185 Çağrı Mərkəzi, (+994 70) 3 104 104 "Whatsapp" nömrəsinə, eləcə də sosial şəbəkələrdəki ünvanlarımıza suallar göndərməklə əldə edə bilərsiniz. Bir daha xatırladırıq ki, qaz istifadəçisi olan abonentlər üçün Azərbaycan Dövlətinin bir əsas güzəşti var, o da illik 2200 kubmetr həcmində qazdan hər kubmetrə görə 10 qəpikdən istifadə ilə bağlıdır. "Azəriqaz" İstehsalat Birliyi bu məsələdə hüquq-mühafizə orqanlarının köməklik göstərməsini istəyir. Çünki sosial şəbəkələrdə belə dələduz əməllərlə məşğul olanlar 2 milyon 300 minə yaxın abonenti olan bir təşkilatın işini bir anda iflic vəziyyətinə sala bilər".




Göründüyü kimi "Azəriqaz" məlumatı təkzib edir və bunu təxribat adlandırır. Məqsəd kütləvi şəkildə koronavirusun yayılmasına nail olmaq ola bilərmi? Virusun yayılması risqinin ölkəmizdə aşağı səviyyədə olduğunu görən bizi istəməyən dairələrin belə təxribata əl atması nə dərəcə inandırıcıdır? Təhlükəsizlik üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, bu olduqca həssas məsələdir:"Pandemiya dönəmində biz belə şayiələrin yayılmasının dəfələrlə şahidi oluruq. Ölkəmiz həssas məqama qədəm qoyduğu üçün maraqlı dairələr bununla manipulyasiya edirlər. Dediyiniz nümunə də bu qəbildəndir. Fikir verin ki, bununla cəmiyyətə nə qədər zərər vermiş olurlar. Birincisi, əhali arasında ajiotaj yaradılır və nəticədə indiki mənzərə yaranır. Bununla insanlar karantin qaydalarını pozaraq, kütləvi halda bir yerə cəmləşirlər. Bu da virusun yayılma risqini artırır. Bundan əlavə, dövlət qurumlarının hansısa güzəşti verəcəyinə inandırılan vətəndaş gedib orda bunun yalan olduğunu görəndə, həmin qurumdan narazı qalır. Sadə vətəndaş elə bilir ki, onu hansısa informasiya manipulyatoru deyil, məhz həmin qurum aldadıb. Bunun da nəticəsində şayiə yayanlar məqsədlərinə çatır. Çünki vətəndaşlarda dövlət qurumlarına müəyyən məna da etibarsızlıq toxumunu səpmiş olurlar. Düşünürəm ki, həmin qurumlar və ənənəvi peşəkar media dərhal bu qəbildən olan məlumatlara reaksiya verməlidir ki, yalan daha geniş areala yayılmasın. Təbiidir ki, burada Azərbaycanın pandemiya ilə mübarizədə uğurlarını həzm edə bilməyən dairələrin də marağı ola bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus ABŞ-da seçkinin təxirə salınması ehtimalları yaratdı - Tramp hadisələrə fürsət kimi baxacaqmı...

*Yeganə Hacıyeva: "ABŞ Konstitusiyası və hüquq sistemi prezident seçkilərinin təxirə salınması, müəyyən müddət üçün ləğvini təmin etmir"*

**Donald Tramp koronavirusa görə ABŞ-da prezident seçkisini təxirə sala bilər. Xarici medianın verdiyi məlumata görə, bunu ABŞ-ın keçmiş vitse-prezidenti, Demokratlar Partiyasından prezidentliyə mümkün namizəd Co Bayden bildirib:"Mənin dediklərimi yadda saxlayın.**

Fikrimcə, o hansısa formada seçkini yubatmağa, bunun üçün müxtəlif səbəblər göstərərək təxirə salmağa cəhd göstərəcək". Qeyd edək ki, ABŞ-da noyabrın 3-də prezident seçkisi keçiriləcək. Donald Tramp Respublikaçılar Partiyasının namizədi olaraq yenidən prezidentliyə namizəddir. Trampın koronavirus bəhanəsi ilə seçkiləri təxirə salmaq kimi planları nə dərəcədə inandırıcı sayıla bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ da prezident seçkiləri dörd ildən bir keçirilir və proses üç mərhələdə: yerli, ştat və federal səviyyədə baş tutur:"Ümumiyyətlə, bu ölkənin seçki sistemi elə qurulub ki, ölkə üzrə bütün ştatlar üçün yekcins və vahid prezident seçkiləri prosesi yoxdur, bu proses çoxpilləli və bir neçə mərhələdən ibarət mürəkkəb prosesdir. Suala şərh verməzdən öncə hazırda ABŞ-da prezident seçkiləri öncəsi prosesləri izah etmək daha doğru olardı. Dünyanın bütün digər ölkələr kimi, ABŞ da pandemiya və onun ölkənin daxili siyasi və iqtisadi təsirlərinə hazır deyildi. Xüsusilə də ölkənin həyatında ən önəmli siyasi hadisə olan prezident seçkilərində pandemiyanın təsirindən baş verə biləcək istənilən vəziyyətlə bağlı. Burda bir haşiyə çıxım ki, qlobal pandemiya ölkələr üzrə hökumətlər və onların idarəetməsi üçün bir test oldu, pandemiyadan öncə siyasi qurupların cəmiyyətlərdə mövqelərini dəyişdi, mövqelər sıfırlandı, bəzi yüksək mövqelər zəiflədi və ya əksinə. Bir sözlə, mövcud vəziyyət dəyişdi. Çox qısa bir zaman üçün pandemiya ABŞ iqtisadiyyatına tarixinin ən pis böhranlarından birini gətirdi: kiçik biznes iflasa uğrayır, işsizlik 3,5% -dən 4,4% -ə yüksəlir, milyonlarla insan işini itirir. Təkcə mart ayında 700 mindən çox insan işini itirdi. Bu göstərici 2009-cu ildən bəri işsizlik səviyyəsində ən böyük sıçrayışdır.



Analitiklərin proqnozları isə daha qaranlıq bir mənzərə yaradır: pandemiya bir ay da davam edəcəksə, ABŞ-ın əmək bazarı 10-30% azalaraq 45 milyon iş yerinin itirilməsinə səbəb ola bilər. İndi ABŞ vətəndaşı üçün, hətta ənənəvi daşlaşmış respublikaçı elektorat üçün də bu göstəricilərin məsuliyyət ünvanı buna qədər ABŞ-ın istənilən neqativ prosesin məsuliyyəti üzərinə atılan, demokratların çoxluqda olduğu Kongres deyil, böhran vəziyyətində idarəetmə təcrübəsi və anlayışı olmayan Tramp və onun administrasiyasıdır. Yəni mövqelər iki ay bundan öncəki kimi deyil və kardinal dəyişib. Vəziyyəti daha da çətinləşdirən Donald Trampın bundan öncəki seçki ərəfəsində əsas kampaniya mövzusu olan, ABŞ səhiyyə sisteminin, tibbi xidmətlərin hamı üçün əlçatan olmasına hədəflənən, müəllifinə görə simvolik olaraq "Obamacare" adlanan səhiyyə islahatlarının ləğv edilməsi istiqamətində atılan addımlar Tramp üçün baş ağrısına çevrilib. Hər bir ABŞ vətəndaşı "Obamacare" vacibliyini öz nümunəsində hiss edir və Trampın bu islahatların ləğvi ilə bağlı təşəbbüslərinin necə yalnış olmasını özü hiss edir. ABŞ-da müalicənin nə qədər bahalı olduğunu nəzərə alsaq, ucuz və hətta pulsuz dərman haqqında təşəbbüslər hər zamankından daha çox alqışlanır. Sırf ABŞ-da prezident seçkisinin təxirə salınması və ya zamanının dəyişdirilməsi haqqında fikirlərə şərh versəm, ABŞ konstitusiyası və hüquq sistemi prezident seçkilərinin təxirə salınması, müəyyən müddət üçün ləğvini təmin etmir. 1845-ci ildə qəbul edilmiş "Prezident seçkiləri günü haqqında" qanunda səsvermənin noyabrın ilk bazar ertəsindən sonrakı çərşənbə axşamı günü" keçirildiyi bildirilir. ABŞ konstitusiyasına görə, yerli səviyyədə keçirilən ilkin-praymeriz seçkilər və ya yerli seçkilərin zamanının dəyişdirilməsi qısa müddət üçün mümkündür. Amma bu, ştat və ya federal səviyyədəki seçkilərə şamil olunmur. Federal seçkilərə gəldikdə, bu, partiyaların Senat və Konqresdə razılaşdırılması nəticəsində federal qanunvericiliyə düzəlişlə bəlkə də mümkün olardı, amma heç bir halda Donald Trampın ABŞ prezidenti kimi səlahiyyət müddətinin uzanması anlamına gəlmir. İstənilən halda , konstitusiyaya görə, Donald Trampın bir prezident kimi səlahiyyətləri 2021-ci il yanvarın 20-də başa çatır və daha uzun müddət hakimiyyətdə qalmaq üçün hüquqi baza yoxdur. Ehtimal olaraq seçkilərin təxirə salınmasını qəbul etsək belə, 2021-ci il yanvarın 21-də de-yure ABŞ prezidenti olmayacaq. Eyni zamanda Donald Tramp özü bunda maraqlı deyil".

Demokratlardan fərqli olaraq, respublikaçılar artıq yerli səviyyədə seçki prosesinə start veriblər, televiziya və internet üzərindən ənənəvi reklamlarını davam etdirirlər. Politoloqun sözlərinə görə, demokratlar isə əksinə, televiziya və internetdəki ənənəvi reklamlardan tamamilə imtina etdilər, partiya iyulda qurultayın mümkün ləğvini də müzakirə edir:"Bunun fonunda isə partiyanın prezidentliyə namizədinin necə seçiləcəyi prosesi hələ məlum deyil və bunun haqqında heç bir məlumat yoxdur. Donald Trampa isə təşviqatı hər zamanki kimi davam etdirməsi lazımdır, çünki pandemiya səbəbindən seçkini qanuni olaraq ləğv edə bilmir, bundan əvvəlki proseslərdəki kimi Senata təzyiq göstərmək və ya qanunda boşluq tapmaq qabiliyyəti ona kömək etmir.

**Ona görə də öz təşviqatını məhz indi hökumətin federal məclisin səhiyyə və iqtisadiyyatı dəstəkləmək üçün büdcə ilə razılaşması, bu məqsəd üçün də 2 trilyon dollar ayrılması zamanı bunu arqument olaraq istifadə edərək aparmağı məqsədəuyğun sayır. Pandemiyanın ABŞ isqisadiyyatına fəsadları Donald Trampa mane olmur. Çünki Tramp xaos və ziddiyyətlər şəraitində özünü yaxşı hiss etdiyini dəfələrlə sübut edib. Bəlli bir ideologiyası və prinsipləri olmayan, bü gün dediklərini sabah danan, kütlənin əhval-rühiyyəsinə uygun gündə bir qərar verən praqmatik bir sima kimi o, istənilən vəziyyətə çox rahat uygunlaşır və məhz xaosda öz mənafeyini daha yaxşı qoruyur".**

*Məhəmmədəli*
*QƏRİBLİ*

# Bakı-Tiflis-Qars Türk dünyasının əsas marşrutuna çevrilir...

**Məlum olduğu kimi, bu günlərdə Bakı-Tiflis-Qars dəmir yolu xəttilə hərəkət edən ən uzun qatar Bakıya çatıb. 940 metr uzunluğunda və 82 konteynerdən ibarət olan qatarda Türkiyədə istehsal olunan ixrac məhsulları daşınıb. Yüklər Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistan üçün nəzərdə tutulub.**

Qatar Türkiyədən Özbəkistana qədər məsafəni 9 günə qət edib. Konteynerlərdən 30-u Ələt limanından gəmilərlə Türkmənbaşı, 24-ü Aktau, 8-i isə Kurık limanlarına çatdırılıb.

Ekspertlər qeyd edilən məqam fonunda, ümumiyyətlə, qarşıdakı dövr ərzində Bakı-Tiflis-Qarsın türkdilli ölkələr arasında yükdaşımalarda əsas xəttə çevriləcəyini proqnozlaşdırır. Hazırda türkdilli ölkələrin coğrafiyasına və onlar arasında yükdaşımalara nəzər saldıqda ən sərfəli marşrutun məhz Bakı-Tiflis-Qars olduğu üzə çıxır. Bu mənada təsadüfi deyil ki. Türk Şurasının son iclasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı-Tiflis-Qarsın Orta Asiyaya qədər uzadılmasının vacibliyini önə çəkdi. Ərdoğan pandemiyanın dünya iqtisadiyyatına mənfi təsirindən danışıb və onun fəsadlarının azaldılmasının, həmçinin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd edib:"Türkiyə ilə Azərbaycan və Gürcüstan arasında yük daşımaları üçün istifadə edilən dəmir yolu xəttini Orta Asiyayadək uzada bilərik. Bakı-Tiflis-Qars dəmir yolu xətti vasitəsilə mövcud yükə əlavə olaraq gündəlik 3500 ton yükün daşına bilməsi yönündə işlər görürük. Bağlanan quru yolları ilə əlaqədar Azərbaycan və Qazaxıstan türk nəqliyyatçıları üçün mühüm bir tranzit marşruta çevrilib".

Türkiyənin ticarət naziri Ruhsar Pekcan isə bildirir ki, bu dəmir yolu yeni tip koronavirus infeksiyası risqi ilə əlaqədar yük daşınmalarındakı problemləri aradan qaldırmağa kömək etmək iqtidarındadır. Onun sözlərinə görə, BTQ polad magistralı Avrasiyada bütün növ yüklərin təhlükəsiz daşınmasında xüsusi imkanlara malikdir:"Türkiyə tərəfi yeni tip koronavirusun yayılmasının iqtisadiyyata və ticarət dövriyyəsinə mənfi təsirini azaltmaq üçün gördüyü tədbirlər sırasında Bakı-Tiflis-Qars dəmir yolunda hərəkətin intensivliyini artırmağa ciddi diqqət yetirir. BTQ xəttilə daşınmaların həcmini təxminən 2,4 dəfə artırmağa imkan var. Məlum səbəbdən son aylar Türkiyə ilə İran arasındakı daşınmalara dair problem məhz bu xəttin verdiyi imkanlar sayəsində çözülüb. Hazırda bu dəmir yolu xəttini daha intensiv istifadə etmək üçün çalışırıq. Təkcə bu ilin aprel ayında bu marşrutla daşınan vaqonların sayı yanvar ayına nisbətən təxminən 2,8 dəfə, yüklərin həcmi isə 2,4 dəfə artaraq, müvafiq olaraq 344 vaqon və 10,194 min tona çatıb". Onun sözlərinə görə, Azərbaycan və gürcüstanlı tərəfdaşları ilə intensiv şəkildə videokonfrans və telefonla əlaqə saxlanılır:"Mövcud vəziyyət bütün ölkələri ticarəti davam etdirmək üçün alternativ yollar hazırlamağa sövq edir. Gündəlik ehtiyacları davamlı və effektiv şəkildə qarşılamaq üçün həmkarlarımızla birgə əlaqəli şəkildə çalışırıq".

Türkiyədən ola ekspert Selçuk Çolakoğlu isə qeyd edir ki, Bakı-Tiflis-Qars dəmir yolu xəttinin yükdaşımada Çindən Avropaya qədər bir alternativ rolunu oynaması Türkiyənin prioritetləri arasındadır. Onun sözlərinə görə, bu çərçivədə rəsmi Ankara BTQ-ni Türkiyə ixrac mallarının Orta Asiya ölkələrinə daşınması üçün vacib bir yol hesab edir:"Aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə zirvə görüşündə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BTQ-nın daha təsirli və intensiv istifadə ehtiyacını gündəmə gətirdi. Türkiyə prezidenti BTQ xəttilə gündə əlavə 3 500 ton yük daşımaq üçün səy göstərilməli olduğunu vurğuladı. Bu məqsəd üçün Türk Şurasına üzv ölkələr arasında keçid kvotalarında, sürücü vizaları kimi məsələlərdə işin asanlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Ro-Ro xətlərində göstərilən xidmətlərdə endirimin tətbiq edilməsi, bu istiqamətdə sürücülərdən tələb edilən əlavə giriş sənədlərinin təmin edilməsi, ölkələr arasında qarşılıqlı əsasda giriş ödənişlərinin ləğv edilməsi BTQ-nın yükdaşıma qabiliyyətini artıracaq. Xüsusilə hazırda koronavirus pandemiyasına görə ənənəvi yükdaşımada müəyyən qədər ləngimələr müşahidə edilir. Lakin BTQ insan olmadan, təmassız yükdaşımanı təmin etdiyinə görə Türk Şurası ölkələri arasında vacib bir missiyanı öz üzərinə götürə bilər".

Qeyd edək ki, hazırda orta Asiya ölkələri də yüx idxal və ixracında BTQ-nın imkanlarından




daha çox istifadəyə xüsusi diqqət yetirir. Burada o da nəzərə alınır ki, bu dəmir yolu xətti həm də Asiya və Avropanın dəmiryol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur.

**BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir. Faktdır ki, məhz BTQ dəmir yolu Mərkəzi Asiya ölkələri olan Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Hazırda Qazaxıstan bu xətdən fəal istifadə edir. Özbəkistandan da tezliklə ilk yüklərin gəlməsi gözlənilir. Ümumiyyətlə, Özbəkistan Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq multimodal marşrutun fəal iştirakçılarından biridir. Bu marşrut, BTQ də daxil olmaqla, Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa ölkələrini əhatə edir. Təbii ki, bu marşrut vasitəsilə Özbəkistana məxsus yüklərin daşınması adıçəkilən ölkə üçün olduqca sərfəlidir.**

***Ramil QULIYEV***

# Əmanətlərin tam sığortalanma müddəti də uzadıldı - Prezidentin sərəncamının sosial effektləri...

**Xəbər verildiyi kimi, əmanətlərin tam sığortalanması müddəti doqquz ay uzadılıb. Prezident İlham Əliyev "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"nu imzalayıb.**

Qanunun 3-cü maddəsində dəyişiklik olunub. Dəyişikliyə əsasən, əmanətlərin tam sığortalanması müddəti doqquz ay uzadılıb.

Xatırladaq ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanun 2016-cı il martın 4-dən qüvvəyə minmiş və müddət 2019-cu ildə yenidən 1 il uzadılmışdı.

**Qeyd edək ki, yeni seçilmiş Milli Məclis fəaliyyətə başlayandan sonra qanun layihəsi müvafiq qaydada qanunvericilik təşəbbüsü hüququna malik orqan tərəfindən parlamentin müzakirəsinə təqdim edildi.**

Belə ki, cəlb olunduğu tarixə Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlərin, məbləğindən asılı olmayaraq, bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan Fondun iştirakçı bankları tərəfindən tam sığortalanması müddəti 04 mart 2020-ci il tarixindən 04 dekabr 2020-ci il tarixinədək uzadılıb.

Ekspertlər hesab edirlər ki, əmanətlərin müddətinin artırılması bank sektoruna olan münasibətin dəyişməsinə səbəb olacaq.

İqtisadçı-ekspert Elman Sadıqov bildirdi ki, əmanətlərin sığortalanması müddətinin daha doqquz ay uzadılması təqdirəlayiqdir: "Şəxsən düşünürəm ki, mövcud iqtisadi şəraiti də nəzərə alaraq, əhalidə mövcud vəziyyətdə hər hansı bir narahatlığın yaranmaması üçün "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun müddəti yenidən uzadıldı".

***Elman Sadıqov:** "Əmanətlərin sığortalanması müddətinin uzadılması həm bank sektoru, həm real sektor, həm də əhalinin maraqlarına xidmət edəcək"*



Ekspert hesab edir ki, əmanətlərin sığortalanması müddətinin uzadılması həm bank sektoru, həm real sektor, həm də əhalinin maraqlarına xidmət edəcək.

***Günel CƏLİLOVA***

# İpoteka üzrə 23 mindən çox borclunun 1,1 milyard manat kreditinə yeni güzəşt...

**Azərbaycanda fiziki şəxslərin (sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan) dəstəklənməsi istiqamətində İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiya imkanları yaradılacaq. Yəni bununla bağlı bağlanan müqavilələrin müddəti uzadılacaq.**

*"İpoteka kreditləri restrukturizasiya olunmasaydı, o zaman bir çoxu ciddi çətinliklərlə üzləşə bilərdi"*

Bu, Mərkəzi Bankın Prezident İlham Əliyevin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planının "Karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi" tədbirinin icrası çərçivəsində Maliyyə Sabitliyi Şurasının tövsiyələrini nəzərə almaqla qəbul etdiyi Tədbirlər Planında öz əksini tapıb.

Məlumata görə, bu tədbir nəticəsində 1,1 milyard manatlıq ipoteka krediti üzrə 23 minə yaxın sayda borcalanın faydalanması imkanı yaranacaq. Kreditlər borcalanların müraciəti əsasında restrukturizasiya olunacaq. 1 mart 2020-ci il tarixinədək verilmiş və keyfiyyəti qənaətbəxş olan belə kreditlərin restrukturizasiyası 30 sentyabr 2020-ci ilədək həyata keçirildiyi halda, onların keyfiyyəti pisləşdirilməyəcək. Eyni zamanda, bankların öz vəsaitləri hesabına ipoteka kreditləşməsini stimullaşdırmaq məqsədilə bu kateqoriyadan olan kreditlər üzrə risq dərəcələrinin 100%-dən 50%-ə qədər azaldılması barədə qərar qəbul edilib.

İndiki dövrdə belə bir qərarın verilməsi hansı əhəmiyyətə malikdir?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev ipoteka kreditləri ilə bağlı belə bir qərarın qəbul olunmasına müsbət prizmadan yanaşdı. Onun fikrincə, əhalinin gəlirlərinin aşağı düşdüyü bir vaxtda belə bir qərarın verilməsi vacib sosial əhəmiyyət kəsb edir: "Çünki belə bir qərara böyük ehtiyac var idi. Ona görə ki, mövcud vəziyyətlə əlaqədar çoxsaylı şəxsin ipoteka krediti ödənişlərində problemlər yaranıb. Karantin rejimi ilə əlaqədar ipoteka krediti götürənlər gəlir əldə edə bilmirlər. Nəticədə ipoteka kreditlərinin ödənilməsində problemlər meydana gəlir. Hazırda bütün banklarda mövcud olan ipoteka kreditlərinin ümumi həcmi 1.1 milyard manatdır. Bu kifayət qədər böyük rəqəmdir. İpoteka kreditləri restrukturizasiya olunmasaydı, o zaman bir çoxu ciddi çətinliklərlə üzləşə bilərdi. Nəticədə min bir əziyyətlə əldə etdikləri mənzil ödənişlərin yubanmasına görə əldən çıxa bilərdi.

***Əli Əlirzayev:** "...belə bir qərarın verilməsi vacib sosial əhəmiyyət kəsb edir"*




**Bu baxımdan hesab edirəm ki, kredit ödənişlərinin vaxtının uzadılması onların xeyrinədir. Hesab edirəm ki, sözügedən güzəştin böyük əhəmiyyəti var. Sosial mənada bu, mühüm əhəmiyyət kəsb edir. Zatən, bununla bağlı ipoteka krediti götürənlər borcu qaytaracaq. Sadəcə, məlum vəziyyət üzündən insanlar gəlir əldə edə bilmirlər. Ona görə də onlara borcun qaytarılması ilə bağlı bəlli bir möhlətin verilməsi doğru qərardır".**

***Vidadi ORDAHALLI***

# Mərkəzi Bankın kreditlərə güzəşt paketi - bəs istehlak kreditləri...(?)

**Xəbər verildiyi kimi, Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 23.04.2020-ci il tarixli qərarı ilə koronavirus pandemiyasına görə bank sektorunda bəzi güzəştlərə icazə verilib. Belə ki, martın 1-dən sentyabrın 30-a qədər biznes və istehlak kreditini ödəyə bilməyən vətəndaşlara cərimə faizi və dəbbə pulu hesablanmayacaq.**

Qeyd edək ki, Mərkəzi Bankın qərarına əsasən, pandemiya şəraitində əhalinin və biznesin dəstəklənməsi üçün sentyabrın 30-dan sonra vətəndaşa yeni kredit tarixçəsi açılacaq. Bu müddət ərzində müştərinin ödəmədiyi əsas kredit borcu da ora əlavə ediləcək. İpoteka kreditləri ilə də bağlı güzəşt olacaq. Onu da bildirək ki, İpoteka və Kredit Zəmanət Fondu artıq bununla bağlı qaydaları açıqlayıb. Qaydalara əsasən, intizamlı borcalanlar müvəqqəti maliyyə çətinlikləri ilə üzləşdikləri hallarda kreditin restrukturizasiyası üçün müraciət edə bilərlər. Qeyd edək ki, güzəştlər, eyni zamanda, sığorta öhdəliyi olan vətəndaşlara da şamil ediləcək. Bu müddət ərzində Mərkəzi Bank kommersiya banklarının dəstəklənməsi və onlara müəyyən güzəştlərin edilməsini də həyata keçirəcək.

Ekspertlər hesab edirlər ki, pandemiya dövründə istehlak kreditləri ilə bağlı verilmiş qərar adekvat deyil.

İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, sentyabra kimi bütün növ kredit faizlərinin hesablanması dondurulmalı idi: "Mərkəzi Bank problemlərin dərinliyini hələ ölçə bilməyib. Çünki verilmiş qərardan əldə olunan nəticə odur ki, istehlak kreditləri ilə bağlı sentyabrın 30-na kimi faiz ödənişlərinin gecikdirilməsinə hesablanan cərimə tutulmayacaq. Bundan başqa güzəşt yoxdur. Çox təəssüf. İpoteka kreditləri ilə də bağlı eyni yanaşmadır. Sentyabra kimi kreditlərin ödənişlərinə heç bir cərimə tutulmayacaq. İpoteka kreditləri ilə bağlı yeganə üstün cəhət odur ki, biznes şərtləri ilə verilmiş ipoteka kreditlərinin təminatının 50 faizini dövlət sığortalaya bilər. Bunun üçün də yenidən müqavilələrin bağlanmasına ehtiyac yaranacaq".

İqtisadçı-ekspert Samir Əliyev bildirdi ki, Mərkəzi Bank nəhayət ki, maliyyə sektoruna nəzərdə tutulan dəstəyin detallarını açıqladı. Bankın İdarə Heyətinin qərarı ilə 3 əsas sektora - bank, sığorta və kapital bazarı iştirakçılarına əlavə dəstəkləyici tədbirlər təsdiq edilib: "Əsas diqqəti maliyyə sektorunda böyük çəkiyə malik bank sektoruna yönəldib. Dəstəkləyici tədbirlərin detalları barədə dövri mətbuatda, o cümlədən, sosial şəbəkələrdə geniş məlumatlar verilib, ekspertlər tərəfindən rəylər bildirilib. Ona görə detallara çox da varmayacam. Sadəcə, bəzi nüanslarıı qeyd etmək istəyirəm.

1.Banklar və kredit müştəriləri üçün 2 seçim təklif edilir. Ya kreditlər restrukturizasiya edilməli, əgər bu hansısa səbəbdən mümkün olmazsa, şərtlər qüvvədə qalır, gecikməyə görə əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması tövsiyə olunur.

2. Dəstək proqramı ancaq biznes və ipoteka kreditlərinə şamil edilir. Güzəştlər istehlak kreditlərinin digər növlərinə (məsələn, avtomobil, məişət texnikası və s.) tətbiq edilmir.

3. Biznes və ipoteka kreditlərinin heç də hamısı güzəştdən yararlana bilməz. Bunun üçün həmin kreditlərin keyfiyyəti qənaətbəxş olmalıdır. Yəni müştəri 2020-ci il martın 1-i tarixinə qədər kreditinin ödənişi 30 gündən çox gecikdirməməlidir.

4. Kredit faizləri və məbləğləri üzrə güzəştlər nəzərdə tutulmayıb. Güzəşt ancaq gecikməyə görə tətbiq edilməli olan əlavə cərimə faizlərinə, dəbbə pulu və digər ödənişlərə şamil edilir. Bu o deməkdir ki, müştərilər kreditlərini ödəməkdə davam etməlidirlər.

5. Müştərilər kredit borcunu gecikdirərlərsə, onların kredit tarixçələrinin pisləşməsi 30 sentyabr 2020-ci il tarixinədək dondurulur".

İqtisadçının sözlərinə görə, sənəddə çatışmayan nüanslar var: "1. Restrukturizasiya seçimi müştərilərə verilsə də, qərarvermə hüququ banklarda qalır. Yəni burda hər şey konkret bankın subyektiv seçimindən, yanaşma tərzindən asılıdır.

2. İnsanların daha çox ehtiyacı olduğu kredit tətili tətbiq edilmir. Güzəştlər ancaq cərimə və dəbbə pullarına tətbiq edilir. Müştəri müqavilə şərtlərini dəyişdirə bilməzsə, bu halda köhnə ödəniş qrafikinə uyğun öhdəliyi yerinə yetirməyə məcburdur.

3. Depozit öhdəliyini yerinə yetirmək üçün banklara dəstək nəzərdə tutulmayıb. Krediti geri almayan banklar üçün depozit öhdəliklərinin yerinə yetirilməsində çətinliklər yarana bilər. Bu məqsədlə cəlb edilmiş depozitlər üzrə məcburi ehtiyat normasını 30 sentyabr 2020-ci il tarixinə qədər 0,5%-dən (xarici valyuta üzrə 1%-dən) 0-a endirmək olar. Eyni zamanda, əmanətlərin sığortalanması üzrə haqları aşağı salmaq və ya dondurmaq olar.

4. İqtisadi akivliyin gücləndirilməsi, o cümlədən, sahibkarlıq subyektlərini ucuz pulla təmin etmək üçün Mərkəzi Bank tərəfindən banklara depozit və ya kredit şəklində aşağı faizli maliyyə resursları ilə təmin etmək".

**Ekspert hesab edir ki, Mərkəzi Bank zəif banklarla bağlı preventiv tədbirləri gücləndirməli, konsolidasiya tədbirlərini aktivləşdirməli, zərərli aktivlərin tam sağlamlaşdırılmasını təmin etməlidir. Bunun yollarından biri Mərkəzi Bankın bankların kapitalında müvəqqəti iştirakı ola bilər.**

*Günel CƏLİLOVA*




***Natiq Cəfərli:** "Sentyabra kimi bütün növ kredit faizlərinin hesablanması..."*

***Samir Əliyev:** "Dəstək proqramı ancaq biznes və ipoteka kreditlərinə şamil edilir"*

# Pandemiya ilə mübarizə şəraitində "Çernobıl əlilləri" də unudulmadı

**Azərbaycanda digər əlilliyi olan şəxslər kimi, 1986-cı ilin 26 aprelində Ukraynada Çernobıl Atom Elektrik Stansiyasında baş verən dəhşətli qəzanın nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan vətəndaşların da sosial müdafiəsi istiqamətində mühüm işlər aparılır.**

*”...sosial-məişət problemləri də yaxın zamanlarda həll olunacaq”*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Qanun qəbul edilib, həmin vətəndaşların sosial müdafiəsi işlərinin əsasları formalaşıb.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində ötən dövrdə digər əlilliyi olan şəxslər kimi, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatı da ildən-ilə gücləndirilib.

Qanunvericiliyə əsasən, əlilliklərinin səbəblərinə görə həmin şəxslər "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" əlilliyi olanlar və "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar" əlilliyi olanlar kimi iki qrup üzrə müəyyən ediliblər.

Belə ki, hər iki qrupdan olan əlilliyi olan şəxslər əlilliyə görə aylıq müavinət (1-ci dərəcə əlilliyə görə 150 manat, 2-ci dərəcə əlilliyə görə 130 manat, 3-cü dərəcə əlilliyə görə 110 manat) və ya əlilliyə görə əmək pensiyası ilə təmin olunurlar.

Onu da qeyd edək ki, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslərə əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (1-ci dərəcə əlilliyə görə 250 manat, 2-ci dərəcə əlilliyə görə 230 manat, 3-cü dərəcə əlilliyə görə 210 manat) də verilir.

Bununla yanaşı, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla və Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar əlilliyi olanlardan I dərəcə əlilliyi olanlar üçün Prezidentin aylıq təqaüdü (100 manat) və 1-ci dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü (50 manat) ödənilir.

***Mayis Əliyev:*** *”Çernobıl AES qəzası nəticəsində əlillik dərəcəsi alan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi müsbət haldır”*



Çernobıl AES qəzası ilə əlaqədar əlillik dərəcəsi almış şəxslərin sosial müdafiəsinin gücləndirilməsini ekspertlər də müsbət qarşılayırlar.

"Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev bildirdi ki, Çernobıl AES qəzası nəticəsində əlillik dərəcəsi alan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi müsbət haldır: "Ölkədə Çernobıl əlillərinin hüquqlarını tənzimləyən xüsusi qanunvericilik aktı var. Bununla yanaşı, əlillərin sosial hüquqları ilə bağlı qanunlar onlara da şamil edilir. Bütün əlillər pensiya ilə təmin olunur. Həmçinin, Çernobıl əlillərinə pulsuz ev və avtomobillər də verilir. Onu da deyim ki, I və II dərəcə əlilliyi olan şəxslərin, habelə bu kateqoriyadan olan və vəfat etmiş valideynlərin uşaqlarına aylıq sosial müavinət veriləcək".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Çernobıl AES qəzası ilə əlaqədar əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası, sosial-məişət problemləri, onların sanatoriya-kurort müəssisələrinə yollayış məsələsi də yaxın zamanlarda həll olunacaq.

***Günel CƏLİLOVA***

# Rusiya 1 iyuladək bir istisna ilə xaricə buğda satışını dayandırır, Azərbaycan da Rusiyadan taxıl alıcısıdır...

**Rusiya Federal Baytarlıq və Fitosanitar Nəzarət Xidməti, (Rosselxoznadzor) Avrasiya İqtisadi İttifaqı ölkələri istisna olmaqla, iyulun 1-nə qədər xarici ölkələrə buğda, çovdar, meslin (buğda və çovdar qarışığı), arpa və qarğıdalının ixracının dayandırıldığını açıqlayıb.**



"Rosselxoznadzor" bu qərarını taxılın qiymətini stabilləşdirmək və ölkənin daxili tələbatını təmin etmək arqumentilə əsaslandırıb. Qeyd edək ki, son qərar Rusiyanın bu istiqamətdə atdığı ilk addım deyil. Ötən ay da "Rosselxoznadzor" rəsmiləri bütün taxıl ixracının martın 20-dən etibarən dayandırıldığını söyləmişdilər. İxracat qadağasının 10 gün davam edəcəyini bildirən qurum rəsmiləri əmrin yuxarıdan gəldiyinə diqqət çəkmiş və koronavirusu bəhanə gətirmişdilər. "Rosselxoznadzor"-un vitse-prezidenti Yukiya Suabauskene mətbuata açıqlamasında bunları deyib:"Rusiya Dövlət Şurası tərəfindən verilən bu qərar koronavirusun Rusiyada yayılmasının qarşısını almaq məqsədi daşıyır".

Bəzi ekspertlər hesab edir ki, bugünkü açıqlama koronavirusdan bəhanə kimi istifadə edildiyini göstərir. Əsl məqsədin isə həm buğda qiymətlərini yüksəltmək, həm də keçmiş SSRİ ölkələrinə təzyiqi artırmaq olduğu deyilir. Ancaq bizim araşdırmalarımız fərqli mənzərəni üzə çıxarır. Verilən rəsmi rəqəmlərə istinad etsək, bu sahədə Azərbaycanın göstəricilərinin qənaətbəxş olduğunu görərik. Açıqlanan rəsmi rəqəmlərdə bildirilir ki, 2020-ci ilin yanvar ayında Azərbaycanın buğda idxalı ötən ilin yanvar ayı ilə müqayisədə 54 faiz azalıb. İdxalın azalmasının əsas səbəbi 2019-cu ildə ölkədə taxıl ehtiyatlarının formalaşdırılmasıdır. Belə ki, respublikamızda yerli taxıl istehsalı 6 faizdən çox artıb. Eyni zamanda, buğda idxalı da 1 milyon tondan 1,5 milyon tonadək artıb. Çünki 2018-ci ildə dünya bazarında taxılın qiyməti bir az baha idi, ona görə də sahibkarlar yerli ehtiyatlardan daha çox istifadə ediblər. 2019-cu il mövsümündə isə dünya bazarında qiymətlər əlverişli olub. Xüsusilə də Rusiyada məhsul yığımı dövründə qiymətlərin əlverişli olmasına görə sahibkarlar öz ehtiyatlarını yenidən idxal mənbələri hesabına, həmçinin yerli istehsal hesabına tam formalaşdırıblar. Ona görə də bu il Azərbaycanın buğda idxalı ötənilki ilə müqayisədə azalıb. Hazırda Azərbaycanın taxıl ehtiyatlarının kifayət qədər olduğu bildirilir. Azərbaycan buğda idxalını tam dayandırmasa da, bunu minimallaşdırmağı düşünür. Mütəxəssislər düşünür ki, buğda idxalını illik təxminən 700-800 min tona qədər azaltmaq olar. Son 1 il ərzində Rusiyadan ixrac edilən buğdanın qiymətində əsasən azalma trendi müşahidə olunub. 2020-ci ilin yanvar ayında 1 ton buğdanın ixrac qiyməti əvvəlki aya nisbətən 5.16% artaraq 226.4 dollar səviyyəsində qərarlaşıb. 2019-cu ilin yanvar ayından etibarən Rusiyanın daxili bazarında buğdanın qiymətində müşahidə olunan artım 2019-cu ilin aprel ayından azalma ilə əvəz olunsa da, avqust ayından etibarən artım trendi qeydə alınıb. 2020-ci ilin yanvar ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 2.84% artaraq 203 dollar olub.

Hazırda neftin qiymətinin kəskin düşməsi Rusiyanın iqtisadiyyatına da ciddi təsir edib. Bu baxımdan da, Rusiya ölkəyə valyuta gətirə biləcək məhsulların xarici bazarda satılmasının tərəfdarıdır. Onun taxıldan təzyiq vasitəsi kimi istifadə edəcəyi inandırıcı görünmür. Çünki dünyada taxılın satılmasında maraqlı olan alternativ ölkələr də kifayət qədərdir. Azərbaycanın bu sarıdan ehtiyat edəcəyi nəsə yoxdur. Əvvəla, öz daxili ehtiyatlarımız mövcuddur. İkincisi isə, yerdə qalan tələbatımızı istənilən ölkə vasitəsilə reallaşdıra bilərik.

***Məhəmmədəli QƏRİBLİ***

№ 66 (4197) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 APREL 2020-ci il

www.baki-xeber.com



# Dünyanın ən ucuz, təsirli və nisbətən zərərsiz dərmanı...

**"Aspirin" ticarət adı ilə tanınan asetilsalisil turşusunun tarixi bir çox təsadüflərdən ibarətdir. "Saglamolun.az" bildirir ki, aspirin ağrıları və temperaturu azaltmaq üçün bir vasitə kimi 1897-ci ildən tibbdə istifadə olunur.**

Lakin 20-ci əsrin ortalarında amerikalı həkim Laurens Kreyven boğazda artıq ətin aradan qaldırılması əməliyyatından sonra asetilsalisil turşusu ilə saqqız tövsiyə etdiyi xəstələrdə tez-tez qanaxma və qan durulması yarandığını görür. Məlum olur ki, xəstələr tövsiyə olunan dozanı dəfələrlə aşıb. Bundan sonra həkim qərara gəlir ki, bu əks təsir - qanı durultması infarkt və insultun qarşısını almaq üçün effektiv üsuldur. Lakin Kreyvenin tapıntıları qəbul edilmir və 1956-cı ildə yayımlanan məqaləyə əhəmiyyət verilmir. Yalnız 20-ci əsrin sonlarında aspirinin profilaktikası məsələsi yenidən tibbin gündəminə qaldırılır. Maraqlıdır ki, təxminən 80 ildir asetilsalisil turşusundan istifadə edən həkimlər bunun təsir mexanizmini bilməyib. 1971-ci ildə ingilis biokimyaçısı Con Ueynin əməyi sayəsində geniş tanınıb. Məlum oldu ki, turşu bədənimizdə xüsusi bioloji aktiv maddələrin - bədənin istiliyinin tənzimlənməsində, iltihab reaksiyalarında və qan laxtalanma sisteminin işində iştirak edən prostaqlandinlərin sintezinə maneə törədir. Odur ki, aspirin belə geniş bir spektrə malikdir.

1982-ci ildə Con Veyn və isveçli həmkarları Sune Berqström və Bengt Samuelson bu kəşf üçün Nobel mükafatına layiq görülür.

Asetilsalisil turşusu ilk dəfə 1853-cü ildə fransız alimi Şarl Frederik Gerard tərəfindən sintez edilib. Əsası qədim zamanlardan bəri bilinən söyüd qabığı idi. O dövrün Alman İmperiyasının qanunlarına görə, kimyəvi birləşmələr patentli deyildi, ancaq bənzərsiz ticarət markası qeydə alına bilərdi. Buna görə yeni dərmana "aspirin" adı verilir. Mənası hərarəti azaldan və ya ağrıkəsən dərman deməkdir. Əvvəlcə aspirin toz şəklində satılırdı və yalnız 1904-cü ildən bu yana həb şəklində satışa buraxılmağa başlanır. 1915-ci ildən bu yana aspirin satılır. Aspirin dünyanın ucuz, təsirli və nisbətən zərərsiz olmaqla, ən populyar ağrıkəsici dərmanı hesab olunur. 1952-ci ildə uşaqlar üçün yüngül aspirin növü yaradılır, 1969-cu ildə aspirin tabletləri Apollon astronavtının ilk yardım dəstinə daxil edilir.

Bu gün aspirin antipiretik və ağrıkəsici kimi, infarkt və trombozun qarşısını almaq üçün, müəyyən xəstəliklərin kompleks müalicəsində, məsələn, ginekologiyada istifadə olunur. Aspirinin "paxmel" əlamətlərini aradan qaldıran bir vasitə kimi istifadəsi geniş yayılıb.

## Qucaqlaşmağın inanılmaz 11 faydası...

**Alimlər qucaqlaşmağın faydalarını açıqlayıblar. "Milli.Az" qucaqlaşmağın 11 üstünlüyünü təqdim edir. 1. Stressi azaldır. Tədqiqatlar göstərir ki, qucaqlaşmaq kimi adi təmas stressi əhəmiyyətli dərəcədə azaldır. Gün ərzində 1 təmas kifayətdir.**

Bundan əlavə, qucaqlaşmaq zehni sağlamlığı da gücləndirir. 2. Narahatlığı azaldır. 3. Uşaqları daha sağlam formalaşdırır. Qucaqlaşma və emosional yaxınlıq "koronar arteriya" xəstəliyinə qarşı təsirli olur. 4. Hər yaş qrupundan olan insanı soyuqdəymədən qoruyur. Araşdırmalara görə, bir-birinə mütəmadi sarılan insanlar daha az xəstələnirlər. 5. Ağrıları azaldır. Xroniki ağrıdan əziyyət çəkən insanlar problemdən qucaqlaşmaqla qurtula bilər. Həmin an ifraz olunan endorfin hormonu beyindəki opioid reseptorlarını aktiv edərək ağrını minimuma endirir. 6. Xüsusilə boyun və çiyin ağrısını azaldır. Endorfinlə yanaşı, dofamin də qucaqlaşma prosesində ifraz olunan hormonlar arasındadır. Dopamin, eyni zamanda, rahatlaşmış bədən mənasını verir. Bunun sayəsində boyun və başdakı əzələ sıxılmaları dayanır, sinir və qan damarlarındakı təzyiq azalır, qan axışı yaxşılaşır. Əzələ hərəkət diapazonu inkişaf edir və beləcə, ağrı minimallaşır. 7. Bədəniniz daha çox "sevgi hormonu" ifraz edir. "Yaxşı hissetmə" hormonu olaraq da bilinən oksitosin sarılma ilə birlikdə yüksək miqdarda ifraz olunur. Sarılmaq stress hormonu olan kortizolun səviyyəsini aşağı salır və oksitosinin miqdarını artırır. 8. Qan təzyiqini aşağı salır. Qan təzyiqinin aşağı düşməsi ürəklə bağlı narahatlıqların və xroniki sağlamlıq problemlərinin azalması deməkdir. 9. Ürək ritmini yavaşladır. Qucaqlaşma prosesi ürək ritmini yavaşladıb adrenalin səviyyəsini azaldır. 10. Münaqişələrin həllinə kömək edə bilər. Tədqiqatlara görə, sarılmaq münaqişə əsnasında və sonrasında müsbət hisslərin artmasına köməkçi ola bilir. 11. Fəlsəfi böhranlardan qoruya bilər. Həyatın mənasına, ya da faniliyinə dair fikirlər beyninizi yorursa, sarılmağı sınayın.

## Həftədə 49 saatdan çox işləyirsinizsə...

**ABŞ-da aparılan bir araşdırmaya görə, uzun müddət çalışanlarda yüksək təzyiqin yaranma ehtimalı var. Kanadada bu yöndə 3500-dən çox işçi üzərində tədqiqat aparılıb. Nəticədə digər insanlarla müqayisədə həftədə 49 saat və daha çox çalışanlarda yüksək təzyiq risqi 70 %-ə yüksəlib.**

Milli.Az xəbər verir ki, araşdırma zamanı yaş, cinsiyyət, təhsil səviyyəsi, peşə, siqaretdən istifadə, bədənin immunitet səviyyəsi və digər sağlamlıq faktorları əsas götürülüb. Tədqiqat qrupunun rəhbəri, Laval Universitetinin əməkdaşı Xavier Trudel bildirib ki, insanlar uzun müddət çalışmağın sağlamlıqlarına təsir edə biləcəyinə diqqət yetirməli, əgər uzun müddət çalışırlarsa, daim həkim yoxlanışından keçmək kimi önəmli məsələni diqqətdə saxlamalıdırlar.

Qeyd edək ki, dünyada 1 milyondan çox yüksək təzyiq xəstəsi var. Bu da insanlarda ürək-damar xəstəlikləri, iflic, hətta bəzən ölüm təhlükəsini də artırır.





**Qoç** - İşgüzar danışıqlar konstruktiv alınır. Emosiyaları bir kənara qoyub, doğrudan da vacib olan məsələlərə köklənmək mümkündür. Taleyüklü qərarlar vermək, iddialı planlar qurmaq olar.



**Buğa** - Sakit gündür. İstirahət edin, güc toplayın. Yorucu işlərdən qaçın. Təxirə salınması mümkün olan bütün işləri sonraya saxlayın. Özünüzü nə ilə sevindirə bilərsiniz? - Əsas düşüncəniz bu olsun.



**Əkizlər** - Zinət əşyaları, parfümeriya və qəşəng geyimlər ala bilərsiniz. Romantik görüşlər üçün əla gündür. Axşam teatra, yaxud konsertə getmək də pis olmaz. Yeni tanışlıqlar ürəyinizcə olacaq.



**Xərçəng** - Səfərlər üçün münasib gündür, amma yolda ehtiyatlı olmaq lazımdır: xoşagəlməz yol yoldaşlarınız işlərinizi və əhvalınızı korlaya bilərlər. Keçmişinizlə bağlı bir insanla görüş də kefinizi poza bilər.



**Şir** - Yeni layihələrin icrasına başlaya bilərsiniz. Ancaq bu zaman tərəfdaşlarınızın etibarlılığına tam əmin olmalısınız. Yalnız sizə öz vəfasını sübut etmiş adamlarla iş görün. Yeni işgüzar tanışlıqlar qurmaq məsləhət deyil.



**Qız** - Şəxsi həyatınızda isə hər şey əladır. Görüşlər, yeni tanışlıqlar sizi sevindirəcək. Çoxdan dostluq etdiyiniz birilə romantik münasibətlərə başlaya bilərsiniz. Uzun müddət dil tapmağa çalışdığınız insanla bu gün, nəhayət ki, ünsiyyət qura bilərsiniz.



**Tərəzi** - Əhəmiyyəti az olmayacaq gündür: nəhayət ki, sizi çoxdan bəri narahat edən sualların cavabını tapmaq imkanı əldə edəcəksiniz. Müşahidə qabiliyyətiniz sayəsində həmkarlarınızın və rəhbərliyin motivlərini aydınlaşdırmaq asan olacaq.



**Əqrəb** - Uğursuz gündür. Nüfuzlu və hiyləgər düşmənlərlə mübarizə aparmalı olacaqsınız. Öz maraqlarınızı qorumaq çətin olacaq. Bir çoxları maliyyə vəziyyətlərinə görə narahat olacaqlar.



**Oxatan** - Əgər gərəksiz risk etməsəniz, gününüz yaxşı keçəcək. Bir məqsəd uğrunda hər şeyi qurban vermək istəyi çox güclü olacaq, amma yaxşı olar ki, məntiqinizi dinləyib ehtiyatlı olasınız.



**Oğlaq** - Xeyli maraqlı imkan yaranacaq. Sizin üçün çətin olanı isə bunların arasından birini seçməkdir. Əsas odur ki, çox fikirləşməyəsiniz, əks halda hamısı əlinizdən çıxar. Maraqlı görüşlər, sərfəli iş təklifləri almağınız mümkündür.



**Dolça** - Ciddi, sevindirici hadisələr baş verir. Narahatlıq üçün səbəb yoxdur. Rahat olub axına qoşula bilərsiniz. Əlbəttə, belə taktika elə də səmərəli deyil, amma dincəlib güc toplamağa imkan verir.



**Balıqlar** - Neytral gündür. Xoşagəlməz hadisələr və həlli mümkünsüz problemlərin yoxluğu sizi sevindirəcək. Maliyyə işləriniz düzələr, pul ala bilərsiniz. Hətta həvəssiz başladığınız işin öhdəsindən də asanlıqla gəlirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ağıl dişi haqqında maraqlı faktlar...

**Bəzən 18-20 yaşında çıxan ağıl dişləri insana o qədər əziyyət verir ki, hətta əməliyyata belə ehtiyac olur.**

"Milli.Az" xəbər verir ki, ağıl dişləri 18 yaşdan sonra 7 nömrəli dişlərin arxasında çıxır. Bu səbəbdən də bir çox ölkədə bu dişə "windsom teeth", yəni ağıl dişi adı verilib. Bu diş bəzi insanlarda 17-20 yaş arasında, bəzilərində isə hətta 50 yaşında da çıxa bilər. Bunun səbəbi isə orqanizmin inkişafından və çənənin quruluşundan asılıdır. Məlum olduğu kimi, çənənin arxa hissəsində çıxan bu dişlər insana ağrı, qızdırma, çənədə şişkinlik, iltihab və pis qoxu verə bilər. Belə olduğu halda, həmin diş mütləq şəkildə çəkilməlidir. Çünki ağıl dişləri çıxmasa belə, onların kökləri çənəmizdəki bütün dişləri hər iki tərəfdən sıxışdıraraq əyə bilərlər. Bunun üçün ağıl dişlər çıxmazdan əvvəl hər il çənənin rentgen müayinəsi aparılmalıdır. Ağıl dişlərinin o biri dişlərdən heç bir fərqi yoxdur. Ağıl dişləri insana heç bir narahatlıq vermirsə, lazımlı orqan sayılır və çəkilməsinə də ehtiyac yoxdur.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.